## PREZİDENT İLHAM ƏLİYEV NARDARANDAKI 295 NÖMRƏLİ TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Dilarə Cəbrayılova dövlətimizin başçısına burada yaradılan...



Bax səh. 2

## BAKININ MAŞTAĞA QƏSƏBƏSİNDƏKİ 187 NÖMRƏLİ TAM ORTA MƏKTƏBİN BİNASI ƏSASLI TƏMİR EDİLİB

Prezident İlham Əliyev təhsil ocağında yaradılan şəraitlə tanış olub

Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində Cəfər Cabbarlı adına 187 nömrəli tam orta məktəbin binası əsaslı təmir edilib. AZƏRTAC xəbər verir ki, sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu təhsil ocağında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 14 sentyabr 2018-ci il, cümə / № 173 (5300). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev İsrailin müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Xalq artisti Arif Məlikovu təbrik edib. Təbrikdə deyilir: “Hörmətli Arif müəllim!

Sizi - Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsini 85 illiyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Sizin geniş diapazonlu rəngarəng yaradıcılığınız müasir musiqi mədəniyyətimizin parlaq hadisələrindəndir. Qara Qarayev məktəbinin layiqli davamçısı kimi xalq musiqisi ənənələri və dünya klassik irsini müasir musiqi formaları ilə uğurlu şəkildə birləşdirərək meydana gətirdiyiniz çoxsaylı sənət nümunələri ilə musiqi salnaməmizin daha da zənginləşməsində və ölkə mədəniyyətinin inkişafında müstəsna xidmətləriniz vardır. Özünəməxsus əlvan musiqi çalarları, dərin koloriti və yüksək bədiiliyi ilə seçilən əsərləriniz professionallığın zirvələri olub, musiqisevərlərin daim rəğbətini qazanmışdır. Fəlsəfi düşüncələr və bəşəri duyğularla aşılanmış ecazkar musiqiniz mənəvi kamilliyə can atmaqda insanlara yaxından kömək edir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən qiymətli əsərləriniz ölkəmizin hüdudlarından kənarda, dünyanın ən məşhur teatrlarında uğurlu səhnə təcəssümünü tapmışdır.

Siz, eyni zamanda, gənclərin hamisi və mahir pedaqoq olaraq Bakı Musiqi Akademiyasının professoru və bəstəkarlıq kafedrasının müdiri kimi zəngin təcrübənizdən bəhrələnən istedadlı musiqiçilər nəslinin yetişdirilməsində uzun illərdən bəri böyük xidmətlər göstərirsiniz. İctimai-siyasi həyatımızda cərəyan edən mühüm hadisələrə və taleyüklü məsələlərə münasibətdə Siz həmişə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, vətənpərvər və aydın düşüncəli ziyalı kimi də xalqımızın hörmətini qazanmısınız.

Səmərəli, məhsuldar və mənalı həyat yolunuz sənətə sonsuz bağlılığın və xalqa xidmətin bariz nümunəsidir. Yaradıcılığınız dövlət tərəfindən daim lazımınca qiymətləndirilmişdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - Heydər Əliyev mükafatına, “Heydər Əliyev” və “İstiqlal” ordenlərinə layiq görülmüsünüz.

Əminəm ki, Siz bundan sonra da bütün qüvvə və bacarığınızı Azərbaycan mədəniyyətinin inkişafı naminə sərf edəcəksiniz”.

◆ ❖ ◆

Prezident İlham Əliyev Arif Cahangir oğlu Məlikovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev tədris mərkəzinin yaradılması və kadr hazırlığı layihəsinin icrası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.




## AKADEMİK RAMİZ MEHDİYEVİN “DAĞLIQ QARABAĞ - MƏXƏZLƏRDƏN OXUNMUŞ TARİX” KİTABI LİVANDA NƏŞR EDİLİB

Bu yaxınlarda Livanın paytaxtı Beyrut şəhərində “Delta” Dərin Araşdırmalar Mərkəzində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin...

Bax səh. 3

## AZƏRBAYCAN VƏ LATVİYA ƏDLİYYƏ NAZİRLİKLƏRİ SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİR

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir. 2017-ci ildə Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib. Memorandumun implementasiyası çərçivəsində ötən bir il ərzində iki ölkənin Ədliyyə nazirliklərinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri həyata keçirilib, birgə tədris tədbirləri təşkil olunub, müsbət təcrübələrin mübadiləsi aparılıb. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməkdaşlığın davamı olaraq Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs rəhbərlik etdiyi nümayəndə heyəti ilə sentyabrın 13-də Azərbaycana səfərə gəlib. Səfər zamanı latviyalı nazir Şəhidlər xiyabanında ölkəmizin...

Bax səh. 6



## PAOLO ALLİ: AZƏRBAYCAN QAFQAZ REGİONUNDA SABİTLİYİN TƏMİNİNDƏ AÇAR ROLUNU OYNAYIR

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 13-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb...

Bax səh. 3

## Bakının erməni-bolşevik işğalından azad edilməsi tariximizin ən şanlı səhifələrindəndir

Sentyabrın 13-də Bakıda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun və Türkiyənin Atatürk Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə “Birinci Dünya müharibəsi dövründə Osmanlı...



Bax səh. 4

### Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Varşavada qeyd edilib

Sentyabrın 12-də Polşanın paytaxtı Varşava şəhərində Heydər Əliyev Fondunun və Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə...



Bax səh. 3

### Naxçıvan Tibb Kollecinin binası istifadəyə verilib

Sentyabrın 13-də Naxçıvan Tibb Kollecinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki...



Bax səh. 5

### Ümumdünya Avtomatik İdarəetmə Sistemləri Təşkilatının növbəti beynəlxalq konfransı 38 ildən sonra yenidən Bakıda keçirilir

Sentyabrın 13-də Bakıda Ümumdünya Avtomatik İdarəetmə Sistemləri Təşkilatının (IFAC)...



Bax səh. 4

### Hesablama Palatasının geniş tərkibdə kollegiya iclası keçirilib

Sentyabrın 13-də Hesablama Palatasının geniş tərkibdə kollegiya iclası keçirilib. Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında əsas diqqət...



Bax səh. 7

# Prezident İlham Əliyev Nardarandakı 295 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Dilarə Cəbrayılova dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, məktəbin binası 2003-cü ildə inşa olunub. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq məktəbin binasında əsaslı təmir işləri aparılıb. Üçmərtəbəli məktəb binasının ümumi sahəsi 5600 kvadratmetrdən çoxdur. Məktəbdə 38 sinif otağı, informatika kabinetləri, 2 idman zalı var. Əsaslı təmir işləri zamanı təhsil müəssisəsinin kitabxanası, emalatxanaları, yeməkxanası, tibb otağı, akt zalı da müasir səviyyədə yenidən qurulub. Məktəbdə, eyni zamanda, şagirdlərin nəzəri biliklərini zənginləşdirmək üçün biologiya, kimya və fizika laboratoriyaları yaradılıb. Ümumilikdə, 1296 şagird yeri olan məktəbin bütün sinif otaqları zəruri avadanlıqla təchiz edilib. Hazırda birnövbəli sistemlə məktəbdə 886 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 56 müəllim məşğul olur. Burada tədris Azərbaycan dilində aparılır.



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində təhsilin inkişafına xüsusi diqqət yetirilir. Son illərdə çoxlu sayda yeni məktəb binasının inşası, mövcud təhsil müəssisələrinin isə müasir səviyyədə yenidən qurulması geniş vüsət alıb. Bu layihələr paytaxtımızla yanaşı, respublikanın ən ucqar kənd və qəsəbələrini də əhatə edir. Bu işlərlə yanaşı, Azərbaycanda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi istiqamətində də mühüm işlər görülür. Bütün bunlar bir daha sübut edir ki, insan kapitalının formalaşmasında müstəsna rola malik olan təhsil sahəsinin inkişafına ölkəmizdə ən yüksək səviyyədə diqqət göstərilir. Bütün bunlar isə gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində mühüm rol oynayır.



# Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Hüseynqulu Əliəsgərov Prezident İlham Əliyevə təmir və yenidənqurma işləri ilə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, 192 nömrəli tam orta məktəbin binası 1936-cı ildə inşa olunub və bu günədək burada heç bir əsaslı təmir işləri aparılmayıb. Məktəbin binası 1941-1945-ci illərdə təxliyə hospitalı kimi fəaliyyət göstərib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən bu ilin may ayından əsaslı təmir və bərpa işlərinə başlanıb. Yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Hazırda məktəbdə 2136 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbdə 22 sinif, 5 laboratoriya, akt zalı, hərbi otaq, kitabxana və yeməkxana var.



Qeyd olunub ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2018-ci ilin statistikasına görə, məktəbi bitirən məzunların 90 faizi tələbə adını qazanıb. Onlardan biri 700 bal, 9 nəfər isə 600 baldan yuxarı nəticə göstərib.

Zəngin təbii sərvətlərindən səmərəli istifadə edən Azərbaycan insan kapitalının daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq son illərdə müasir məktəb binaları, yeni korpuslar tikilir. Bu proses Azərbaycanın bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də ardıcıl işlər həyata keçirilir. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 192 nömrəli tam orta məktəbdir. Burada təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb müasir tədris avadanlıqları və dərs ləvazimatları ilə təchiz edilib. Bu təhsil ocağının həyətində də geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol və voleybol meydançaları yaradılıb.



# Prezident İlham Əliyev İsrailin müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İsrail arasında iqtisadi, hərbi, mədəniyyət, turizm sahələrində əlaqələrin inkişafından məmnunluq bildirilib, Aviqdor Libermanın ölkəmizə səfərinin əməkdaşlıq işinə öz töhfəsini verəcəyinə ümidvarlıq ifadə olunub.

Söhbət zamanı Azərbaycanda digər icmalarla yanaşı, yəhudi icmasının nümayəndələrinin də dinclik və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şəraitin yaradıldığı qeyd olunub, onların ölkəmizin ictimai həyatında fəal rol oynadıqları bildirilib.

# Bakının Maştağa qəsəbəsindəki 187 nömrəli tam orta məktəbin binası əsaslı təmir edilib

## *Prezident İlham Əliyev təhsil ocağında yaradılan şəraitlə tanış olub*



Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində Cəfər Cabbarlı adına 187 nömrəli tam orta məktəbin binası əsaslı təmir edilib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu təhsil ocağında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Məktəbin direktoru Nailə Məmmədova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib.



Diqqətə çatdırılıb ki, 187 nömrəli tam orta məktəb 1936-cı ildən fəaliyyət göstərir. 1959-cu ildən təhsil müəssisəsinə Cəfər Cabbarlının adı verilib. 1991-ci ildə təhsil ocağının ikinci korpusu inşa edilib. Məktəbin binasında 2008-ci ildə cari təmir işləri aparılıb. 2018-ci ilin iyun ayında isə Prezident İlham Əliyevin Sərəncamı ilə məktəbdə əsaslı təmirə başlanılıb. Qısa vaxt ərzində təmir işləri yüksək səviyyədə aparılıb.



Məktəbdə yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısına bildirilib ki, burada 2362 şagird təhsil alır. Yeni dərs ilində 265 nəfər birinci sinfə gedəcək. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb lazımi avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün də yeni avadanlıqlar quraşdırılıb. Təhsil ocağının idman zalında yeniyetmələrin fiziki sağlamlığının qorunması üçün bütün şərait yaradılıb. Məktəbin akt zalında müxtəlif tədbirlərin keçirilməsi mümkündür. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb. Burada məktəblilərin yüksək texnologiyalar sahəsində biliklər əldə etmələri üçün kompüter otaqları var. Şagirdlərin ixtiyarında zəngin kitabxana, oxu zalı da olacaq. Təhsil ocağının həyətində də abadlıq və quruculuq işləri həyata keçirilib, idman meydançası yaradılıb. Bu gün 82 yaşı olan bu məktəbdə keyfiyyətli təhsilə yiyələnmək üçün bütün şərait yaradılıb. Təhsil ocağında tədris Azərbaycan və rus bölmələri üzrə aparılır. Burada 158 pedaqoq, 45 texniki heyət fəaliyyət göstərir. Bir çox uğurları olan təhsil müəssisəsi 2010-cu ildə “50 ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olub. Məktəbin məzunlarının ali məktəblərə qəbul səviyyəsi ildən ilə artır. Bu il bu göstərici 50 faiz təşkil edib.

Son illərdə ölkəmizdə yeni məktəb binalarının inşası və əlavə korpusların tikintisi bir daha təsdiqləyir ki, dövlətin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir. Bütün bu işlər həm də onu göstərir ki, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar var. Dövlətin həyata keçirdiyi siyasətə hər zaman dəstək olan Heydər Əliyev Fondu da bu işlərə öz töhfəsini verir. Bu gün təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür.



# Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabı Livanda nəşr edilib




Bu yaxınlarda Livanın paytaxtı Beyrut şəhərində "Delta" Dərin Araşdırmalar Mərkəzində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabı nəşr edilib.

AMEA-nın Fəlsəfə İnstitutundan AZƏRTAC-a verilən məlumata görə, kitabı ərəb dilinə Əlcəzair Milli Araşdırmalar Mərkəzinin (CNRPAH) professoru Zəim Xənişlavi tərcümə edib.

Qeyd edək ki, professor Z.Xənişlavi V Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edib və burada akademik Ramiz Mehdiyevlə görüşərək ondan bu kitabın tərcüməsinə və nəşrinə icazə alıb. Tərcüməçinin öyrənilən problemə bələdliyi ərəb oxucusuna Qarabağ problemini aydın şəkildə başa düşmək imkanı verir.

Kitabda Azərbaycan və Ermənistan arasında hələ də davam edən münaqişənin əsasını təşkil edən tarixi problemdən danışılır. Müəllif problemi tarixi mənbələr əsasında oxucuya izah etməklə bir çox qaranlıq məqamlara aydınlıq gətirir, mürəkkəb məsələlərin həllini göstərən koqnitiv strategiya təqdim edir.

# Paolo Alli: Azərbaycan Qafqaz regionunda sabitliyin təminində açar rolunu oynayır



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 13-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycanın beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etdiyini bildirib. Qeyd edib ki, NATO ilə əməkdaşlıq ölkə siyasətinin əsas prinsiplərindən biridir. Azərbaycanın 24 ildir bu qurumla uğurlu əməkdaşlıq etdiyini söyləyən Milli Məclisin sədri vurğulayıb ki, bu illər ərzində NATO-nun ən yüksək səviyyəli nümayəndələrinin ölkəmizə səfərləri olub.

Oqtay Əsədov diqqətə çatdırıb ki, Azərbaycan NATO tərəfindən həyata keçirilən sülhməramlı dəstək proqramlarında iştirak edir. Hazırda 120 Azərbaycan əsgəri Əfqanıstanda xidmət edir. Milli Məclisin sədri ölkəmizin təkcə NATO ilə deyil, həmçinin NATO Parlament Assambleyası ilə də əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı danışıqlar prosesi barədə məlumat verən Oqtay Əsədov NATO PA-da bu məsələ ilə əlaqədar sənədin qəbulunun vacibliyini qeyd edib.

NATO-da enerji təhlükəsizliyinin çox vacib məsələ olduğunu deyən Milli Məclisin sədri bildirib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Diqqətə çatdırılıb ki, Qədim İpək yolunun dəmir yoluna çevrilməsi layihəsi Asiya və Avropa arasındakı məsafəni daha da azaldır.

NATO Parlament Assambleyasının sədri Paolo Alli söyləyib ki, Cənubi Qafqazdakı təhlükəsizlik bütövlükdə dünya üçün olduqca böyük əhəmiyyət kəsb edir. **"Biz bilirik ki, Azərbaycan Qafqaz regionunda sabitliyin təminində açar rolunu oynayır",** - deyə Paolo Alli qeyd edib. O, Azərbaycanın NATO əməliyyatlarındakı uğurlu iştirakını da xüsusi qeyd edib.

Paolo Alli Azərbaycan nümayəndə heyətinin NATO PA-dakı fəaliyyətini təqdirəlayiq hal hesab edib.

Görüşdə əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Varşavada qeyd edilib
















Sentyabrın 12-də Polşanın paytaxtı Varşava şəhərində Heydər Əliyev Fondunun və Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Mazovetski voyevodluğunun binası önündə Azərbaycana həsr olunmuş "İstiqamət - Azərbaycan" adlı sərgi ilə tanış olublar. Bir ay fəaliyyət göstərəcək sərginin əsas məqsədi Azərbaycanın turizm imkanlarını Polşada tanıtmaq, polyak ictimaiyyətində ölkəmiz haqqında məlumatlılığı artırmaqdan ibarətdir.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov və Mazovetski voyevodluğunun voyevodu (qubernatoru) Zdislav Sipiera sərgi ilə tanış olublar.

Sonra Azərbaycan nümayəndə heyəti Varşavadakı Yuzef Polinski adına parkda ucaldılan "Müstəqil Azərbaycan və Polşa uğrunda mübarizlərin xatirəsinə" abidəsini ziyarət edib, abidə önünə əklillər qoyublar. Məlumat verilib ki, bu abidə Azərbaycan Milli Ordusunun Baş Qərargah rəisi olmuş (1918-1920-ci illər) polyak əsilli general Matsey Sulkeviç və Polşa Respublikası Ordusunun və Milli Ordunun polkovniki olmuş Azərbaycan əsilli Vəli bəy Yadigarın şərəfinə ucaldılıb, Azərbaycan və polyak xalqları arasında dostluq və qardaşlığın simvoludur.

Həmin gün Varşavada Kral sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycanın Polşadakı səfirliyi və Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş tədbirdə xarici işlər nazirinin müavini və digər nazirliklərin məsul əməkdaşları, Seym və Senatın vitse-marşalekləri və deputatları, Mazovetski voyevodası, Polşa regionlarının nümayəndələri, Varşavada akkreditə olunmuş səfirlər və diplomatik korpusun təmsilçiləri, Polşanın ictimai-siyasi həyatının, orta və ali təhsil müəssisələrinin nümayəndələri, bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan səfir Həsən Həsənov iştirakçıları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından salamlayıb.

Bildirilib ki, bu gün qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsipləri əsasında, siyasi, iqtisadi və mədəni sahələrdə formalaşan Azərbaycan-Polşa əlaqələri yüksək səviyyədədir. Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda arasında olan səmimi işgüzar və dostluq münasibətləri qarşılıqlı etimad üzərində qurulub.

Səfir ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığa böyük töhfə verən, Azərbaycan xalqının Ümummilli liderinin adını daşıyan, Azərbaycan mədəniyyətini və tarixini dünyada uğurla tanıtdıran, ölkəmizdə və dünyada bir çox humanitar layihələr həyata keçirən Heydər Əliyev Fondunun rolunu xüsusilə qeyd edib. Bildirilib ki, Fondun prezidenti Mehriban Əliyeva bu səmərəli fəaliyyətinə görə UNESCO və ISESCO-nun xoşməramlı səfiri adına layiq görülüb.

Qeyd edilib ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan-Polşa



dostluq münasibətlərinin inkişafına xidmət edən bir sıra tədbirlər həyata keçirilib. Heydər Əliyev Fondu və Polşanın Azərbaycandakı səfirliyinin birgə əməkdaşlığı çərçivəsində Azərbaycanda 200 nəfərlik məktəb inşa olunub, polyak pianoçu Stanislav Deanın konserti təşkil edilib, daun sindromlu uşaqların Krakov şəhərinə səfəri həyata keçirilib. 2009-cu ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan və Polşa arasındakı dostluq münasibətlərinin inkişafında xidmətlərinə görə Polşanın "Böyük Komandor" ordeni ilə təltif edilib. 2010-cu ildə isə Polşanın Azərbaycandakı səfiri Azərbaycan Prezidentinin qərarı ilə ölkələr arasındakı ikitərəfli münasibətlərin möhkəmlənməsinə verdiyi töhfəyə görə "Dostluq" ordeni ilə təltif olunub.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən səfir H.Həsənov qeyd edib ki, Azərbaycanda birinci respublika cəmi 23 ay ömür sürüb, lakin qısa müddətdə ciddi dövlət quruculuğu tədbirləri həyata keçirib, dünyanın aparıcı dövlətləri ilə diplomatik münasibətlər qurub. 1991-ci ildə müstəqilliyini bərpa etmiş respublikamız beynəlxalq aləmdə uğurlu xarici və daxili siyasət yürüdən, inkişaf etmiş demokratik dövlət kimi tanınır. Azərbaycan tərəfindən həyata keçirilən beynəlxalq enerji və nəqliyyat layihələri ölkəmizi etibarlı tərəfdaş kimi tanıdır. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı arasında imzalanması nəzərdə tutulan Strateji Tərəfdaşlıq Sazişi hərtərəfli və bərabərhüquqlu əməkdaşlığı daha da inkişaf etdirəcək.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Azərbaycan səfiri bildirib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, 1 milyondan çox azərbaycanlı öz doğma yurdundan didərgin düşüb. Ermənistan münaqişənin siyasi həllini inkar edərək, Avropanın və regionun təhlükəsizliyini zərbə altına qoyub. O, münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllinə dəstəyə görə Polşa hökumətinə təşəkkür edib.

Azərbaycan və Polşa arasında ilk diplomatik təmasların hələ 1472-ci ildə baş tutduğunu xatırladan səfir qeyd edib ki, ötən dövrlər ərzində onlarla azərbaycanlı və polyak ölkələrimiz arasında siyasi, elmi və mədəni əlaqələrin möhkəmlənməsinə və inkişafına töhfələr verib. Azərbaycan tərəfinin təşəbbüsü ilə həmin şəxslərin xatirəsi əbədiləşdirilib, Polşanın müxtəlif şəhərlərində 20 abidə və xatirə lövhəsi qurulub.

Həmçinin bildirilib ki, bu il Azərbaycan və Polşa xalqları öz respublikalarının yüz illiyini qeyd edirlər. Polyaklar Azərbaycanın, azərbaycanlılar ilə Polşanın azadlığı və müstəqilliyi uğrunda vuruşublar. Bu mübarizənin ən parlaq nümunəsi Azərbaycan Milli Ordusunun Baş Qərargah rəisi olmuş, general-mayor, milliyətcə polyak Matsey Sulkeviç və Polşa Ordusunun, habelə Armiya Krayovanın polkovniki olmuş, milliyətcə azərbaycanlı Vəli bəy Yadigardır. Azərbaycan hökuməti bu iki görkəmli şəxsiyyətin ölkələrimizin müstəqilliyi uğrunda mübarizəsini əbədiləşdirib, Varşavadakı Polinski parkında onların abidəsini ucaldıb.

Polşa xarici işlər nazirinin müavini Bartoş Çixotski çıxışında Polşa və Azərbaycan əlaqələrində birləşdirici aspektlərə toxunub. Qeyd edilib ki, polyaklar 100 il bundan əvvəl Azərbaycan dövlətinin yaradılmasında iştirak ediblər. Azərbaycan Ordusunda, neft sənayesində, müasir şəhər salınmasında və eləcə də Azərbaycan mədəniyyətində polyak izlərinə rast gəlmək mümkündür. Nazir müavini bildirib ki, bu gün də ölkəsi Azərbaycanın inkişafının bir hissəsi olmaq istəyir, beynəlxalq hüququn prinsipləri əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair tədbirləri dəstəkləyir.

İki ölkə arasındakı sıx siyasi atmosfer və dostluq münasibətlərindən məmnunluqla bəhs edən B.Çixotski ali və yüksək səviyyədə qarşılıqlı səfərlərin baş tutduğunu və bu sıx əlaqələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

Tədbirin bədii hissəsində tanınmış pianoçu Elçin Şirinovun rəhbərlik etdiyi caz qrupu konsert proqramı ilə çıxış edib. Konsertdə xalq və bəstəkar mahnıları, Elçin Şirinov və Şəhriyar İmanovun bəstələdiyi əsərlər caz improvizasiyaları ilə təqdim olunub. Polyak müğənni Malvina Kuşiorun ifasında Azərbaycan xalq mahnısı "Sarı gəlin" böyük maraq və alqışlarla qarşılanıb.

Kral sarayının foyesində Heydər Əliyev Fondu tərəfindən hazırlanmış sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən foto və sənədlər, video və audiomateriallar, səfirliyin tərtib etdiyi broşürlər təqdim olunub, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunan sənədli film nümayiş etdirilib.

# Bakının erməni-bolşevik işğalından azad edilməsi tariximizin ən şanlı səhifələrindəndir



Sentyabrın 13-də Bakıda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun və Türkiyənin Atatürk Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə "Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti - Azərbaycan əlaqələri və Qafqaz İslam Ordusu" mövzusunda beynəlxalq simpozium işə başlayıb.



AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" sərəncamlarına əsasən təşkil edilib. Simpozium Azərbaycanın Milli Ordusunun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını daşnak-bolşevik işğalından azad etmələrinin 100 illiyinə həsr olunub.

Tədbirin açılışında Baş nazirin müavini Əli Əhmədov, Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi-Prezidentin köməkçisi, professor Dilarə Seyidzadə, digər dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, alimlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının uyuduqları Şəhidlər xiyabanını ziyarət edən tədbir iştirakçıları məzarların üzərinə güllər qoyublar.

Daha sonra iştirakçılar 1918-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə canından keçmiş türk şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.

Simpoziumun açılış mərasimində çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, Xalq Cümhuriyyəti Azərbaycan tarixində xüsusi mərhələ təşkil edir. Türk-müsəlman Şərqində ilk parlamentli respublika olan Xalq Cümhuriyyəti dünya tarixinin ən demokratik dövlət qurumlarından biridir. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyinin ölkəmizdə dövlət səviyyəsində qeyd edildiyini deyən alim bugünkü konfransın Qafqaz İslam Ordusunun xalqımızın tarixindəki yeri və roluna həsr olunduğunu bildirib. AMEA-nın rəhbəri 1918-ci il 15 sentyabr tarixinin Azərbaycan-Türkiyə dostluğu və qardaşlığında müstəsna əhəmiyyətə malik olduğunu bildirib. O, Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Azərbaycana gələrək işğalçı erməni-bolşevik qüvvələri ilə mübarizə apardığını, məhz sentyabrın 15-dən sonra milli hökumətin Gəncədən Bakıya köçürüldüyünü və Bakının AXC-nin paytaxtı elan edildiyini söyləyib.



Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Qafqaz İslam Ordusunun Bakını daşnak-bolşevik işğalından azad etməsinin tarixi barədə danışıb. Bildirilib ki, XX əsrin əvvəlində - çox mürəkkəb tarixi şəraitdə Osmanlı imperiyasının Azərbaycana hərbi yardımı Nuru Paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunun timsalında həyata keçirilib. Sovet dövründə bu önəmli tarix həmişə gizlədilir, Nuru Paşanın adı heç bir mənbədə çəkilmirdi. Lakin Azərbaycan xalqına qarşı soyqırımını həyata keçirən Stepan Şaumyana Bakıda heykəl qoyulmuşdu. Amma bu gün Azərbaycan müstəqil ölkədir, tarixi həqiqətlər olduğu kimi deyilir, yazılır, göstərilir.

Yüz il öncə sentyabrın 15-də baş vermiş hadisənin Azərbaycan tarixindəki rolundan söz açan akademik Y.Mahmudov onun gerçəkləşməsinin bütövlükdə türk dünyası üçün böyük əhəmiyyət daşıdığını əsaslandırıb. Qeyd edilib ki, Qafqaz İslam Ordusunun rəşadətli döyüş yolu bu gün müstəqil dövlət kimi varlığını sürdürən Azərbaycanın və Türkiyənin tarixi bağlarını yaşadan qəhrəmanlıq salnaməsidir.

Türkiyənin Atatürk Araşdırma Mərkəzinin direktoru, professor Mehmet Ali Beyhan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərindən söz açıb. O, rəhbərlik etdiyi qurumun AMEA Tarix İnstitutu ilə 10 ildən çoxdur ki, əməkdaşlıq etdiyini söyləyib.

Professor Mehmet Ali Beyhan 1918-ci ilin Türk Qafqaz-İslam Ordusunun rus-erməni işğalçılığına qarşı ölüm-dirim savaşlarının tarixi aspektlərindən, düşmənlərin torpaqlarımızdan çıxarılmasında dost və qardaş xalqlarımızın birgə şücaətlərindən, bu döyüşlərin Azərbaycan tarixində xüsusi önəmə malik olmasından danışıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirib ki, Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakının daşnak-bolşevik işğalından azad olunmasında göstərdiyi xilaskarlıq missiyası Azərbaycanda və Türkiyədə hər zaman təqdirlə qarşılanıb. Səfir Çanaqqala döyüşlərində azərbaycanlıların könüllü olaraq iştirak etdiklərini xatırladıb, bu dəyərlərin gələcək nəsillərə çatdırılmasında konfransın əhəmiyyətini qeyd edib.



Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun vurğulayıb ki, Qafqaz İslam Ordusunun Azərbaycan tarixindəki rolu milli-mənəvi dəyərlərimiz və dövlətçilik tariximiz baxımından müstəsna önəm daşıyır.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Qafqaz İslam Ordusunun tarixdəki rolu, hazırkı dövrdə ona münasibətlə bağlı müxtəlif məqamlardan söz açıb. Əli Əhmədov bildirib ki, Azərbaycanın və Türkiyənin şərəfli tarixi var. Biz zəngin və şərəfli tariximizlə həmişə fəxr edir, sonsuz qürur hissi keçiririk. Bakının erməni-bolşevik işğalından azad olunmasında Qafqaz İslam Ordusunun müstəsna rolundan danışan Baş nazirin müavini bu şanlı tarixin heç vaxt unudulmayacağını vurğulayıb.



Müasir dünyada gedən ictimai-siyasi proseslərdən bəhs edən Əli Əhmədov Azərbaycan ilə Türkiyənin qardaşlıq münasibətlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Sentyabrın 16-dək davam edəcək tədbirdə Azərbaycan, Türkiyə və digər ölkələrdən olan alimlərin məruzələrinin dinlənilməsi nəzərdə tutulub. Həmçinin Azərbaycan tarixçilərinin "Qafqaz İslam Ordusunun formalaşmasında və fəaliyyətində Azərbaycan milli hərbi qüvvələrinin rolu", "Osmanlı imperiyasının xarici siyasətində İrəvanın ermənilərə verilməsi məsələsi", "Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin Gəncə dövrü: iyun böhranı", "Azərbaycan Xalq Cümhuriyyəti dövlət xadimlərinin Bakının azad edilməsində siyasi-diplomatik mübarizəsi", "Böyük dövlətlərin Bakını ələ keçirmək siyasəti Almaniyanın arxiv sənədlərində", "Bakı nefti və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyinin tanınması məsələsi" və digər mövzularda məruzələri dinləniləcək.

# Ümumdünya Avtomatik İdarəetmə Sistemləri Təşkilatının növbəti beynəlxalq konfransı 38 ildən sonra yenidən Bakıda keçirilir

Sentyabrın 13-də Bakıda Ümumdünya Avtomatik İdarəetmə Sistemləri Təşkilatının (IFAC) dəstəklədiyi Texnologiya, Mədəniyyət və Beynəlxalq Sabitlik üzrə 18-ci beynəlxalq elmi konfrans (TECIS 2018) öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Robotika və Avtomatlaşdırma Cəmiyyəti" İctimai Birliyinin və Avstriyanın Vyana Texnologiyalar Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransın açılışında dövlət və hökumət rəsmiləri, elm və təhsil müəssisələrinin, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, xarici və yerli alimlər, tədqiqatçılar iştirak ediblər.

Tədbirdə "Azərbaycan Robotika və Avtomatlaşdırma Cəmiyyəti" İctimai Birliyinin və konfransın təşkilat komitəsinin sədri, texnika üzrə fəlsəfə doktoru Bahadur İbrahimov IFAC-ın yaranma tarixi, fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirilib ki, 1957-ci il sentyabrın 12-də Parisdə təsis olunan IFAC 1978-ci ildən Avstriya hökumətinin dəvəti və dəstəyi ilə fəaliyyətini bu ölkənin Laksenburq şəhərində davam etdirir. Belə ki, 49 ölkənin avtomatlaşdırılmış idarəetmə və mühəndislik üzrə təşkilatlarını özündə birləşdirən IFAC il ərzində onlarla beynəlxalq tədbir keçirir. Hazırda bu qurum robotikanın əsasını təşkil edən avtomatlaşdırma və nəzarət mexanizmləri üzrə dünyada ən nüfuzlu təşkilat hesab olunur.

B.İbrahimov diqqətə çatdırıb ki, konfransda IFAC-ın TECIS texniki komitəsinin 35 illik yubileyi qeyd olunur. IFAC-ın Bakıda ilk və son toplantısı 1980-ci ilin aprelində Ümummilli lider Heydər Əliyevin dəstəyi ilə keçirilib.






Paytaxtımızda 38 ildən sonra yenidən təşkil olunan bu nüfuzlu konfransda beynəlxalq rəyçilər tərəfindən seçilmiş 170 məqalə 9 plenar sessiyada təqdim ediləcək. B.İbrahimov deyib: **"Konfransda iştirak üçün 370-dən çox alimin həmmüəllifi olduğu 200 məqalə toplanılıb. Bu məqalələrin əksəriyyəti robotika, avtomatlaşdırma, humanoid robotlar, mexatronika və s. kimi müasir dövr üçün önəmli sayılan sahələri əhatə edir. Həmmüəlliflər 30-dan çox ölkəni, o cümlədən Azərbaycan, Avstriya, Almaniya, İsveçrə, Rusiya, Türkiyə, Küveyt, Macarıstan, İtaliya, Fransa, İrlandiya, İngiltərə və digər dövlətləri təmsil edirlər. Azərbaycanlı alimlər konfransa 50-yə yaxın məqalə göndəriblər. Dünyanın müxtəlif ölkələrindən olan onlarla elm adamı konfransda elmi məqalələrini bölüşməklə yanaşı, həm turistik bölgələrimizi ziyarət edəcək, həm də texniki turlar vasitəsilə ölkənin texnoloji mərkəzləri ilə yaxından tanış olacaqlar".**

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə IFAC-ın müxtəlif-texniki, bioloji, sosial, iqtisadi və digər sahələrdə avtomatik idarəetmənin tətbiqində və bu sahənin inkişafında mühüm rol oynadığını bildirib. Diqqətə çatdırılıb ki, belə bir nüfuzlu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin elmi ictimaiyyəti üçün mühüm hadisədir. Nazir deyib: **"Konfrans ölkələrimiz arasında elmi əlaqələri genişləndirməyə, qarşılıqlı faydalı məsələlər barədə fikir mübadiləsi aparmağa, əməkdaşlıq istiqamətlərini müəyyənləşdirməyə və avtomatik idarəetmə sahəsində yenilikləri bölüşməyə imkan verəcək".**

Elm və texnologiyaların hər bir ölkənin sosial-iqtisadi inkişafında aparıcı rol oynadığını bildirən nazir diqqətə çatdırıb ki, bu gün dünyada davamlı və dayanıqlı inkişafla bağlı ən qlobal təşəbbüslər İKT, yüksək texnologiyaların tətbiqi ilə həyata keçirilir. Artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz elm və texnologiyalara yiyələnmə, onları mənimsəmə gücünə əsaslanır. Baxmayaraq ki, Azərbaycan əsasən neft ölkəsi kimi tanınır, ancaq ölkəmizdə elmin, təhsilin və texnologiyaların inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindədir. Son illər Azərbaycanda bu istiqamətdə ciddi addımlar atılıb. Belə ki, 350 tələbə dünyanın informasiya texnologiyaları üzrə tanınmış universitetlərinə dövlət hesabına oxumağa göndərilib.

Ramin Quluzadə vurğulayıb ki, ölkəmizdə elm və texnologiyaların inkişafına dəstək verən bir sıra fondlar fəaliyyət göstərir. Onlardan Elmin İnkişafı Fondunu, İKT-nin İnkişafı Fondunu misal göstərmək olar. Həmçinin Azərbaycanda elmi nəticələrin kommersiyalaşdırılması üçün texnoloji parklar fəaliyyət göstərir. Bu parklarda yeddi il müddətinə vergi, eləcə də gömrük güzəştləri tətbiq olunur.

Konfransın işinə uğurlar arzulayan IFAC-ın prezidenti, Almaniya Elm Fondunun vitse-prezidenti, Ştutqart Universitetinin professoru Frank Allgover rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışıb. Vurğulanıb ki, IFAC Azərbaycanın elmi müəssisələri ilə əməkdaşlıq etməkdə maraqlıdır. "TECIS 2018"in Bakıda təşkilindən məmnunluğunu bildirən F.Allgover diqqətə çatdırıb ki, Azərbaycanın konfransa ikinci dəfə ev sahibliyi etməsi əlamətdar haldır. Tədbir iştirakçı alimlərin öz potensiallarını nümayiş etdirmələri baxımından önəmli platformadır. Bu konfransdan gözləntilərimiz böyükdür.

Vyana Texnologiya Universitetinin professoru Peter Kopacek, Vaterford Texnologiya İnstitutunun professoru Larri Stapleton və Təhsil Nazirliyinin sektor müdiri Anar Kazımov çıxış edərək avtomatika və robotika sahəsində tanınmış alimlərinin tədbirdə iştirakları baxımından konfransın əhəmiyyətini vurğulayıblar. Qeyd edilib ki, bu cür nüfuzlu konfransın Bakıda təşkili azərbaycanlı alimlər üçün böyük imkanlar açacaq.

Alimlər "TECIS 2018"in - avtomatik idarəetmənin texnika, iqtisadiyyat, robotika, tibb, sosial həyat və siyasət ilə əlaqəsini əks etdirən tədbirin dünya elminə töhfə verəcəyinə əminliklərini bildiriblər.

Sonra konfrans işini "Kiçik və orta sahibkarlıq üzrə avtomatlaşdırma", "Mexatronik sistemlər və robotlar", "Bio-tibbi sistemlər", "Avtomatlaşdırma və nəzarət mexanizmləri", "Humanoid robotlar" və digər mövzularda sessiyalar üzrə davam etdirib.

Beynəlxalq konfrans sentyabrın 15-dək davam edəcək.

Qeyd edək ki, tədbirin təşkilində Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Limanı, xarici ölkələrdəki səfirliklərimiz, ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Avstriya QHT-ləri və ali təhsil ocaqları dəstək göstəriblər.

# Naxçıvan Tibb Kollecinin binası istifadəyə verilib




Sentyabrın 13-də Naxçıvan Tibb Kollecinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.



Ali Məclisin Sədri Bilik Günü ərəfəsində Naxçıvan Tibb Kollecinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, Ümummilli liderimiz Heydər Əliyevin "Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir" fikrini xatırladaraq deyib: Ümummilli liderimiz Azərbaycana hər iki rəhbərliyi dövründə səhiyyənin inkişafını diqqətdə saxlamışdır. Bu gün Ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidentinin qayğısı ilə Azərbaycanda səhiyyə sistemi müasir tələblər səviyyəsində qurulub. Bu sahədə kadr hazırlığı yüksək səviyyədə həyata keçirilir. Muxtar respublikamızda da səhiyyənin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Hazırda 32 muxtar respublika, şəhər, rayon və kənd sahə xəstəxanaları, mərkəz və dispanserlər, eləcə də 107 feldşer-mama və tibb məntəqəsi, 84 ambulatoriya vasitəsilə əhaliyə səhiyyə xidməti göstərilir. Muxtar respublika, şəhər, rayon və kənd sahə xəstəxanaları, dispanser və mərkəzlər müasir tələblər səviyyəsində qurulub. Ambulatoriyaların 90 faizi, feldşer-mama və tibb məntəqələrinin 95 faizi yeni binalarda yerləşir, əhaliyə müasir səhiyyə xidməti göstərilir.



Ali Məclisin Sədri deyib: Bu gün muxtar respublikanın səhiyyə müəssisələrində 1290 həkim, 2260-dan artıq orta tibb işçisi ştatı mövcuddur. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Həmçinin həkimlər və orta tibb işçiləri ixtisasartırma kurslarına göndərilir, onların bilik səviyyəsi və peşəkarlığı artırılır. Artıq muxtar respublikanın səhiyyə sistemi əhalinin sağlamlığının keşiyində durmağa tam hazır və qadirdir.

Ali Məclisin Sədri buna görə muxtar respublikanın səhiyyə işçilərinə təşəkkürünü bildirərək deyib: Səhiyyə sahəsində daim yeniliklər tətbiq olunur. Muxtar respublikanın səhiyyə işçiləri də bu yenilikləri öyrənməli və tətbiq etməlidirlər. Səhiyyənin inkişafı üçün birincisi şərait olmalıdır, ikincisi isə ixtisaslı kadrların hazırlanmasına diqqət yetirilməlidir. Muxtar respublikamızda hər iki amil diqqət mərkəzində saxlanılır. Səhiyyə müəssisələrində müasir avadanlıqlar quraşdırılmışdır. Həkim və orta tibb işçilərinin hazırlanmasına xüsusi diqqət yetirilir. Bu tədbirlərin həyata keçirilməsi əhalinin sağlamlığına xidmət etməklə yanaşı, eyni zamanda, ölkəmizin gələcəyinə hesablanmışdır. Çünki hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər.

Ali Məclisin Sədri deyib: 1931-ci ildə fəaliyyətə başlayan Naxçıvan Tibb Kolleci şərəfli inkişaf yolu keçmişdir. Kolleci bitirən 8 mindən çox məzun muxtar respublikada əhalinin sağlamlığının keşiyində dayanmışdır. Bu gün də bu iş davam etdirilir. 8 ixtisas üzrə tələbə hazırlığı aparan kollec muxtar respublikamızın orta tibb işçilərinə olan tələbatını tamamilə ödəyəcəkdir. Ona görə də məktəbdə yaradılan şəraitdən səmərəli istifadə olunmalı, tələbələr yüksək səviyyədə hazırlanmalı, tələbkarlıq artırılmalı, praktik dərslərə üstünlük verilməli və nizam-intizama ciddi əməl edilməlidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirib, bir daha kollektivi təbrik edib.

Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova çıxış edərək deyib ki, yenidənqurma işlərindən sonra kollec müasir tibbi təhsil müəssisəsinə çevrilib. Müəllimlər və tələbələr üçün ən müasir tədris şəraiti yaradılıb. Hazırda kollecdə 39 qrupda 8 ixtisas üzrə 702 tələbə təhsil alır. Bu tədris ilində 231 tələbə məzun olub ki, onlardan da yeddisi fərqlənmə diplomuna layiq görülüb. 2018-2019-cu tədris ilində Naxçıvan Tibb Kollecinə 230-dan çox tələbə qəbul olub. Hazırda kollecdə 58 müəllim və həkim çalışır. Tələbələrin təcrübi tibbi biliklərinin daha da artırılması istiqamətində tədbirlər görülür, onlar dərsdən sonra muxtar respublikanın səhiyyə müəssisələrində müxtəlif ixtisaslar üzrə təcrübə keçirlər. Hazırda kollecdə elektron təhsil tətbiq olunur. Yaradılan şərait kollektivin məsuliyyətini daha da artırır. Sona Məmmədova ixtisaslı və peşəkar tibbi kadrların hazırlanması istiqamətində səylərini artıracaqlarını bildirib, yaradılan şəraitə görə Naxçıvan Tibb Kollecinin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanıb.

Məlumat verilib ki, kollecin binası zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarətdir. Yenidənqurma işləri zamanı binanın bünövrəsi möhkəmləndirilib, fasadı yenilənib, müasir tədris şəraiti yaradılıb. Kollecdə kimya, farmokologiya və mikrobiologiya laboratoriyaları, anatomiya-fiziologiya, terapiya, pediatriya və cərrahiyyə kabinələri, müayinə otağı, kitabxana, iclas zalı, 2 kompüter otağı, müəllimlər otağı, Heydər Əliyev lektoriyası, şahmat sinfi, 13 auditoriya və 9 mühazirə zalı, hərbi kabinə, idman zalı, bufet və arxiv vardır. Laboratoriyalar müasir avadanlıqlarla təmin edilib. Auditoriyalarda quraşdırılan elektron lövhə və proyektorlar distant dərslərin keçirilməsinə, o cümlədən elektron dərsliklərdən istifadəyə imkan verir.

Anatomiya-fiziologiya, terapiya, pediatriya və cərrahiyyə kabinələrində nəzəri biliklərin praktik formada möhkəmləndirilməsi üçün lazımi şərait yaradılıb, tibbi avadanlıqlar qoyulub. Kitabxana fondunda 1154-ü tibbi və 3683-ü bədii ədəbiyyat olmaqla, 4837 kitab vardır. Həmçinin kollecdə elektron dərslik bazası da yaradılıb. Kompüter otaqlarında isə internetə çıxışı olan 48 kompüter qoyulub, elektron imtahan proqramı quraşdırılıb. Bu da imtahanların elektron formada aparılmasına imkan verəcəkdir.

Kollecin müəllimləri ilə görüşən Ali Məclisin Sədri deyib: Birlik, nizam-intizam və tələbkarlıq olan təhsil müəssisələrinin nailiyyətləri də çox olur. Ötən dövrdə Naxçıvan Tibb Kolleci uğurlu fəaliyyət göstərmiş və böyük inkişaf yolu keçmişdir. Buranı bitirən məzunlar muxtar respublikada səhiyyənin inkişafına öz töhfələrini verirlər. İxtisaslı tibbi kadrların hazırlanması sahəsində kollecin yaratdığı ənənə Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin yaranması üçün əsas verdi. İstər tibb fakültəsinin, istərsə də kollecin məzunları bu gün muxtar respublikada ən mürəkkəb cərrahi əməliyyatların aparılmasında iştirak edirlər. İnsanlarımıza yaşadıqları yerlərdə hərtərəfli tibbi xidmət göstərilir. Muxtar respublikadakı müasir xəstəxanaların, həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin orta tibb işçiləri ilə təminatı Naxçıvan Tibb Kolleci tərəfindən həyata keçirilir. Həkim müayinə edir, təyinat verir, orta tibb işçisi isə müalicəni aparır. Ona görə də kollektiv yaradılan müasir tədris şəraitindən səmərəli istifadə etməli, kadr hazırlığı işi daim diqqətdə saxlanılmalıdır.

Kollecin müəllimi Sahibə Quliyeva yaradılan şəraitə görə müəllimlər və həkimlər adından minnətdarlıq edib, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəsəklərinə söz verib.

Ali Məclisin Sədri kollecin elektron dərslik fondunun zənginləşdirilməsi, müəllim və tələbələrin təcrübə mübadiləsinin davam etdirilməsi, tədris prosesində qədim tibbi metodların və ənənələrin də öyrədilməsi barədə tapşırıqlar verib.

Binada fərdi qazanxana quraşdırılıb, həyətdə abadlıq işləri aparılıb.

### NAXÇIVAN ŞƏHƏRİNDƏKİ TARİXİ BİNALAR YENİDƏN QURULUR

Muxtar respublikada tikinti-quruculuq işləri aparılarkən tarixiliklə müasirlik vəhdətdə götürülür. Naxçıvan şəhərinin qədim arxitekturası və memarlıq quruluşu qorunub saxlanılır. Tarixi binaların yenidən qurulması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Hazırda Naxçıvan şəhərinin Atatürk küçəsindəki 6 nömrəli binada yenidənqurma işləri aparılır.

Sentyabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada aparılan yenidənqurma işləri ilə tanış olub.

Məlumat verilib ki, bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Yenidənqurma işləri aparılarkən binanın tarixi görkəminin və memarlıq quruluşunun saxlanılmasına xüsusi diqqət yetirilir. Tikinti işləri başa çatdıqdan sonra binada Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Cəmşid Naxçıvanskinin Ev Muzeyi yerləşəcək. Binanın ətrafında da abadlıq işləri aparılacaq, yeni park salınacaq. Parkda Naxçıvan Muxtar Respublikasının turizm marşrutlarının xəritəsini və tarixi abidələrinin görüntülərini əks etdirən stendlər qoyulacaq.

Ali Məclisin Sədri binada tikinti işlərinin keyfiyyətlə aparılması, həmin küçədəki 8 nömrəli binanın da layihələndirilməsi və yenidən qurulması barədə tapşırıqlar verib.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Rusiya Federasiyasına səfər edəcək



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının paytaxtı Çerkessk şəhərinə səfər edəcək.

QMİ-dən AZƏRTAC-a bildiriblər ki, səfərdə məqsəd Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinin ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak etməkdir. Yaradılmasının 20 illiyi tamam olan Mərkəzin təsisçisi Qafqaz Xalqları Ali Dini Şurasının təşkilatçılığı ilə sentyabrın 15-də Çerkessk şəhərində təntənəli toplantı keçiriləcək.

Qeyd edək ki, Mərkəz 1998-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi Qafqaz Xalqları Ali Dini Şurası (QXADŞ) tərəfindən təsis edilib.

QXADŞ ilə Şimali Qafqaz müftiləri arasında əməkdaşlıq səviyyəsinin, koordinasiya işinin yüksəldilməsi məqsədinə xidmət edən Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Mərkəzinə Şimali Qafqazın bütün müftiləri daxildir və sədri Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevdir.

Əlaqələndirmə Mərkəzinin 20 illiyinə həsr olunmuş təntənəli tədbirdə təsisçi və təşkilatçı qurumun rəhbəri olaraq şeyxülislam A.Paşazadənin məruzəsində Mərkəzin tarixinə, fəaliyyət uğurlarına dair məqamlarla yanaşı, Azərbaycan-Rusiya mənəvi əlaqələrinin qorunub saxlanılması, inkişaf etdirilməsinə verilən töhfələr, habelə Azərbaycan dövlətinin, onun liderinin bölgəmiz və dünya üçün əhəmiyyətli təşəbbüs və ideyalarının önəmi vurğulanacaq.

Təntənəli mərasimdə Rusiya Federasiyasının Prezidenti Administrasiyasının məsul rəsmiləri, Rusiya Federasiyasının Şimali Qafqaz subyekti olan respublikalarının rəhbərlərinin, Rusiya Federasiyasının digər respublikalarının dini liderlərinin, habelə Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başkanının müavininin qonaq qismində qatılacağı nəzərdə tutulub.

Qeyd edək ki, Əlaqələndirmə Mərkəzinin üzvləri Azərbaycanda keçirilən dinlərarası dialoqa dair bütün mühüm tədbirlərdə yaxından iştirak edib və dəfələrlə dövlətimizin başçısı tərəfindən qəbul olunublar. Azərbaycanda Prezident İlham Əliyev tərəfindən elan olunmuş Multikulturalizm və İslam Həmrəyliyi illəri çərçivəsində Bakıda, Rusiya Federasiyasında, habelə Türkiyə, Özbəkistan və digər ölkələrdə keçirilən tədbirlərin fəal iştirakçıları olublar.

# Vitalio Kanas: NATO BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələri dəstəkləyir

Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov sentyabrın 13-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycan ilə NATO arasında çox yaxşı əlaqələrin olduğunu və bu münasibətlərin yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin keçid və inkişaf alt-komitəsinin iclasının ölkəmizdə keçirilməsinin əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Milli Məclis sədrinin birinci müavini diqqətə çatdırıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Qərb institutları ilə əməkdaşlığa çox böyük əhəmiyyət verir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində yaxından iştirak etdiyini qeyd edən Ziyafət Əsgərov ölkəmizin iştirakı ilə həyata keçirilən enerji layihələri barədə danışıb, onların əhəmiyyətini xüsusi qeyd edib. O, ölkəmizin Qərb ilə Şərq arasında dəmir yolunun inkişafına xüsusi diqqət yetirdiyini deyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən Z.Əsgərov Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu, bir milyondan çox insanın doğma yurd-yuvalarından didərgin düşdüyünü diqqətə çatdırıb. Qeyd edib ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamə və qərarlara məhəl qoymur. Z.Əsgərov NATO PA-nın qərar və qətnamələrində Azərbaycanın ərazi bütövlüyü ilə əlaqədar bir daha öz fikrini söyləməsinin əhəmiyyətini vurğulayıb.

NATO Parlament Assambleyasının sədri Paolo Alli Azərbaycana səfərindən məmnunluğunu qeyd edib, səfər çərçivəsində səmərəli görüşlər keçirdiyini vurğulayıb.

NATO Parlament Assambleyasının sədrinin müavini Vitalio Kanas NATO ilə Azərbaycan arasındakı əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb. O bildirib ki, Azərbaycanın Avratlantik təşkilatlarla əlaqələrinin genişləndirilməsi parlamentlərarası münasibətlərin də inkişafına təkan verəcək.

Vitalio Kanas deyib ki, NATO BMT-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələri dəstəkləyir.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam etdirilib.

# ATƏT-in insan ölçüsü üzrə iclasında "Bakı prosesi" haqqında danışılıb




Cari ilin sentyabrın 10-da Polşanın paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun İnsan Ölçüsü üzrə öhdəliklərin yerinə yetirilməsinə həsr olunmuş yekun iclası öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, hər il payızda keçirilən bu mötəbər tədbirdə ATƏT-ə üzv olan ölkələr insan ölçüsünə dair konsensus yolu ilə qəbul etdikləri öhdəliklərin yerinə yetirilməsi ilə bağlı hesabat verirlər. Sentyabrın 21-dək davam edəcək tədbirdə ATƏT-ə üzv olan 57 ölkənin nümayəndələri ilə yanaşı, müxtəlif beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri də iştirak edirlər.

Sentyabrın 13-də sözügedən tədbirin "Antisemitizmlə mübarizə; dini və ya etiqadi zəmində, o cümlədən xristianlara, müsəlmanlara və digər dinlərin nümayəndələrinə qarşı dözümsüzlük və diskriminasiya ilə mübarizə" mövzusuna həsr olunmuş 6-cı işçi sessiyası keçirilib. Sessiyada Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək tədbir iştirakçılarına "Bakı prosesi" haqqında geniş məlumat verib. O, "Bakı prosesi"nin tarixi, məqsədləri və iştirakçıları barədə danışıb, bu il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə həmin prosesin 10 illiyinin ölkəmizdə qeyd edildiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

E.Nəcəfov bildirib ki, bir hərəkat kimi mədəniyyətlərarası dialoqun inkişafına yönələn "Bakı prosesi"nin əsası Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə qoyulub. Regional hərəkat olaraq yaradılan "Bakı prosesi" 2010-cu ildən qlobal təşəbbüsə çevrilib. Bu hərəkat çərçivəsində Bakıda dörd Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu (2011-ci, 2013-cü, 2015-ci və 2017-ci illərdə), beş Bakı Beynəlxalq Humanitar Forumu (2011-ci, 2012-ci, 2013-cü, 2014-cü və 2016-cı illərdə), Dünya Dini Liderlərinin Sammiti (2010-cu ildə), eləcə də Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu (2016-cı il) keçirilib. Azərbaycan Respublikası ilə yanaşı, "Bakı prosesi"nin aktorları arasında UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Dünya Turizm Təşkilatı kimi nüfuzlu təşkilatlar yer alır.

E.Nəcəfov çıxışının sonunda BMT-nin baş katibi Antoniu Quterreşin "Bakı prosesi"nə yüksək qiymət verdiyini, onun bu hərəkatın mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynadığını qeyd etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# Azərbaycan və Latviya Ədliyyə nazirlikləri səmərəli əməkdaşlıq edir



Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir. 2017-ci ildə Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib.

Memorandumun implementasiyası çərçivəsində ötən bir il ərzində iki ölkənin Ədliyyə nazirliklərinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri həyata keçirilib, birgə tədris tədbirləri təşkil olunub, müsbət təcrübələrin mübadiləsi aparılıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməkdaşlığın davamı olaraq Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs rəhbərlik etdiyi nümayəndə heyəti ilə sentyabrın 13-də Azərbaycana səfərə gəlib.

Səfər zamanı latviyalı nazir Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Latviyanın ədliyyə naziri Dzintars Rasnaçsın görüşü keçirilib.

Bu il 100 illiyi qeyd olunan dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında dövlət başçılarının xüsusi rolunu vurğulayan nazir F.Məmmədov dostluq və əməkdaşlıq əlaqələrinin, o cümlədən hüquqi sahədə səmərəli qarşılıqlı fəaliyyətin inkişafından məmnunluğunu ifadə edib, hazırkı səfərin əlaqələrin genişləndirilməsinə əlavə təkan verəcəyini bildirib.

Azərbaycana səfər etməsindən məmnunluğunu bildirən latviyalı nazir ölkələrimizin müxtəlif istiqamətlərdə, həmçinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində səmərəli əməkdaşlıq etdiyini vurğulayıb, həyata keçirilən ikitərəfli qarşılıqlı səfərlərin ədliyyə və məhkəmə sahəsində yaxşı təcrübələrin öyrənilməsi baxımından əhəmiyyətini qeyd edib.

D.Rasnaçs Ədliyyə nazirlikləri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı bu ilin noyabrında hər iki dövlətin Ədliyyə nazirliklərinin yaranmasının 100 illiyinin qeyd olunacağı bildirilərək ədliyyə tarixinə, keçdiyi inkişaf yoluna nəzər salınıb, dövlətin hüquq siyasətinin həyata keçirilməsində mühüm rolu vurğulanıb.

Görüşdə ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklərdən bəhrələnmək imkanları müzakirə olunub, məhkəmə sisteminin təkmilləşdirilməsi, mediasiya və probasiya institutlarının tətbiqi, məhkəmə ekspertizası sahəsində faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Qonaqların diqqəti, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, Ermənistanın torpaqlarımıza qarşı davam edən hərbi təcavüzü və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilib.

Tədbirdə hər iki dövlətin səfirləri Cavanşir Axundov və Yuris Maklakovs iştirak ediblər.

Səfər çərçivəsində Latviya nümayəndə heyətinin, ədliyyə sahəsində göstərilən elektron xidmətlər, qeydiyyat və notariat fəaliyyəti, nazirliyin informasiya resursları, həmçinin bölgələrdə yerli və regional ədliyyə qurumlarının fəaliyyəti, müasir məhkəmə infrastrukturu və informasiya texnologiyalarının tətbiqi, eləcə də Azərbaycan brendi olan və ədliyyənin də geniş xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzinin vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti ilə tanışlığı nəzərdə tutulur.

# Hikmət Babaoğlu: Azərbaycan ATƏT-i Ermənistan rəhbərliyinin təhlükəli bəyanatlarına reaksiya verməyə çağırır



Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşdə bir sıra aktual məsələləri müzakirə etdi. Nəzərə almaq lazımdır ki, hazırda dünyada baş verən ciddi hərbi-siyasi və iqtisadi qarşıdurmalar kontekstində ATƏT-ə üzv olan ölkələrin də milli təhlükəsizliyi bu və ya digər dərəcədə təhdidə məruz qalır, yaxud belə hal mümkün hesab edilir. Adından da göründüyü kimi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı isə əlbəttə, belə məsələləri öz tərəfdaşları ilə müzakirə etməli və təhlükəsizlik tədbirləri görməlidir. Bu mənada, Avropanın Cənub-Şərq tərəfdaşları içərisində Azərbaycan olduqca strateji bir ölkədir. Azərbaycanın təhlükəsizliklə bağlı strateji əhəmiyyəti təkcə enerji təhlükəsizliyi ilə məhdudlaşmır, eyni zamanda, coğrafi mövqeyi və hərbi-iqtisadi resursları ilə şərtlənir. Ona görə də Tomas Qremingerin ATƏT-in baş katibi kimi Azərbaycana səfəri məhz bu kontekstdə qiymətləndirilməlidir və bu da ölkəmizin təhlükəsizlik məsələləri baxımından da olduqca əhəmiyyətlidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Hikmət Babaoğlu qeyd edib ki, artıq uzun illərdir Azərbaycanın ərazi bütövlüyü pozulub, torpaqlarımız Ermənistan hərbi birləşmələri tərəfindən işğala məruz qalıb. Problemi həll etmək üçün ATƏT-in Minsk qrupu yaradılıb, lakin bu günə qədər bu qrup münaqişənin həlli ilə bağlı heç bir real töhfə verə bilməyib. Hazırda Ermənistana rəhbərlik edən, küçə siyasətçisi səviyyəsindən yuxarı qalxa bilməyən baş nazir Nikol Paşinyan hər gün yeni bir sərsəm bəyanatla Azərbaycanı təhdid edir. Buna mütləq ATƏT tərəfindən qiymət verilməlidir. Çünki Azərbaycanın da təhlükəsizliyi ən azı bu təşkilata üzv olan digər ölkələrin təhlükəsizliyi qədər əhəmiyyətlidir. Üstəlik də ATƏT problemin həlli ilə bağlı vasitəçilik missiyasını BMT Təhlükəsizlik Şurasının mandatı ilə öz üzərinə götürüb. Ona görə də görüş zamanı Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır. Doğrudan da bu çağırış həm beynəlxalq hüquq, həm də real siyasi proseslər kontekstində olduqca əsaslandırılmış bir çağırışdır. Şübhəsiz ki, ATƏT bu cür həssas məsələyə öz münasibətini bildirməli, işğal faktına son qoymaq üçün vasitəçilik missiyasını layiqincə yerinə yetirməlidir. Əks təqdirdə, bundan sonra bütün məsuliyyət işğalçı Ermənistan və onu idarə edənlərin üzərinə düşəcək ki, bu da Ermənistan üçün yaxşı heç nə vəd etmir. Regionda hamı, o cümlədən Ermənistan Azərbaycanın hərbi qüdrətini və mümkün müharibə variantında onu dəstəkləyəcək iqtisadi resurslarını yaxşı bilir.

# Gəncədə "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini ekstremizm" mövzusunda seminar-müşavirə keçirilib



Sentyabrın 13-də Gəncə şəhərində "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini ekstremizm" mövzusunda seminar-müşavirə keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Naftalan şəhər, Goranboy, Göygöl, Samux, Daşkəsən, Kəlbəcər və Xocalı rayon icra hakimiyyətlərinin, habelə Daxili İşlər və Ədliyyə nazirliklərinin, Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin yerli strukturlarının rəhbərləri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, seminar-müşavirədə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün də qorunub saxlanıldığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmizdə insanların dini etiqad və vicdan azadlığı təmin olunub. Respublikanın hər yerində olduğu kimi, Gəncədə də İslami dəyərlər qorunur. Hazırda şəhərdə 1 ziyarətgah və 6 məscid fəaliyyət göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Məhərrəm ayı və qarşıdan gələn Aşura günü ilə bağlı tövsiyələrini verib. Bildirib ki, Aşura mərasiminin keçirilməsi dərs dövrünə təsadüf edir və həmin gün şagirdlər dərsdə olmalıdırlar. Uşaqların hüquqları ilə bağlı qanunvericiliyə riayət edilməli və onlar dərsdən yayındırılmamalıdırlar.

Tədbirdə Baş Prokurorluğun idarə rəisi Elşən Abbasov müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsaslarından geniş bəhs edib.

Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev dini radikalizm və dini ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən danışıb, təmsil etdiyi qurumun müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi hacı Tahir Abbasov dövlətin dinə və dindarlara qayğısından danışıb. Hazırda Gəncədə dini vəziyyətin sabit olduğunu diqqətə çatdıran T.Abbasov deyib: **"Gəncədəki hazırkı dini durumdan dindarlarımız razıdır və hər hansı bir narahatlıq yoxdur. Din-dövlət münasibətləri qaydasındadır. Dindarlar çox rahat şəkildə ibadət edirlər".**

Qafqaz Müsəlmanlar İdarəsinin səlahiyyətli nümayəndəsi Gəncədə Tasua və Aşuraya hazırlıqla bağlı məlumat verib. Bildirib ki, dini mərasimlər QMİ-nin fətvasında göstərilən tövsiyələrə uyğun icra olunacaq.

Tədbirdə, həmçinin dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış və bəzi xarici ölkələrdəki ekstremist terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edən "Şəhadət" sənədli filmi nümayiş olunub.

# Azərbaycan ilə İsrail arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq inkişaf edir



Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov sentyabrın 13-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir Kəmaləddin Heydərov iki ölkə arasındakı yüksək səviyyəli münasibətlərdən məmnunluq ifadə edərək Azərbaycanın Fövqəladə Hallar Nazirliyi ilə İsrail Müdafiə Nazirliyi Fövqəladə Halların İdarə Edilməsi Milli Agentliyinin səmərəli əməkdaşlığından danışıb.

Nazir iki dövlət arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, bu istiqamətdə gələcəkdə birgə təlimlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman görüşə görə təşəkkürünü bildirib, hər iki ölkə arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətindəki əməkdaşlığın əhəmiyyətindən danışıb. Nazir bu sahədə mövcud əlaqələrin daha da dərinləşdirilməsinin mühümlüyünü vurğulayıb.

Sonra Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş "Xəzər-2017" beynəlxalq təlimindən bəhs edən videoçarx nümayiş olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi də aparılıb.

# Azərbaycanın və İsrailin müdafiə nazirlərinin görüşü olub



Sentyabrın 13-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl İsrailin nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib.

İsrailin müdafiə naziri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

İki ölkə arasında tərəfdaşlığın yüksək səviyyəsindən danışan general-polkovnik Z.Həsənov bunun təkcə dövlətlərimizin inkişafında deyil, həm də bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını qeyd edib.

Azərbaycanın müdafiə naziri Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, işğalçı ölkənin dövlət səviyyəsində daim separatizmi dəstəklədiyini və qoşunların təmas xəttində gərginliyin artırılmasında maraqlı olduğunu diqqətə çatdırıb.

Xalqlarımız arasında mövcud olan tarixi kökləri və əlaqələri yüksək dəyərləndirən A.Liberman ölkələrimizin münasibətlərinin məmnunluq doğurduğunu bildirərək bu cür görüşlərin keçirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə regional təhlükəsizlik, iki ölkə arasında hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, müxtəlif ixtisaslı mütəxəssislər səviyyəsində işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Bakıda üçüncü İndoneziya Mədəniyyət festivalının təntənəli açılışı olub





Sentyabrın 13-də Heydər Əliyev Sarayında üçüncü İndoneziya Mədəniyyət festivalının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları sarayın foyesində İndoneziya mədəniyyəti və incəsənətini əks etdirən sərgi ilə tanış olublar. İndoneziya təbiətini əks etdirən fotosərgi də maraqla qarşılanıb.

Festivalın açılışında çıxış edən ölkəmizdə səfərdə olan İndoneziyanın mədəniyyət və təhsil naziri Mühacir Əfəndi Azərbaycanda olmağından məmnunluğunu ifadə edib. Bildirib ki, "Arxipelaqın ən zəngin mədəniyyətini yaşatmaq" devizi altında üçüncü dəfə təşkil edilən festival ildən-ilə daha maraqlı və zəngin proqramla təqdim edilir. Nazir diqqətə çatdırıb ki, builki festival daha diqqətəlayiqdir. Çünki festival İndoneziyanın müstəqilliyinin 73-cü ildönümünə təsadüf edir.

İndoneziya ilə Azərbaycan arasındakı qədim dostluq əlaqələrindən söz açan qonaq bu əlaqələrin daha da inkişaf edərək genişləndiyini bildirib. **"İndoneziya ilə Azərbaycan arasında münasibətlər qarşılıqlı şəkildə davam edir. Dünyanın ən böyük müsəlman əhalisi olan İndoneziya bütün dinlərə tolerant yanaşmaqda böyük məsuliyyət daşıyır və ISESCO ilə birgə layihələrdə yaxından iştirak edir. Azərbaycanla diplomatik və mədəni əlaqələrin yüksələn xətt üzrə inkişafı dünyada hər iki dövlətin qardaşlıq və sülh tərəfdaşı olmasına işarədir"**, - deyə Mühacir Əfəndi vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan mədəniyyət naziri Əbülfəs Qarayev ölkə rəhbərliyi adından festivalda iştirak edən bütün qonaqları salamlayıb. Bildirib ki, festival iki ölkə arasında münasibətlərin genişlənməsinə, xalqların bir-birini daha yaxşı tanımasına və gələcəkdə çoxsaylı birgə layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

Nazir deyib: **"Azərbaycan və İndoneziya iki dost ölkədir. Biz bütün beynəlxalq platformalarda vahid bir mövqedə çıxış edirik. 1992-ci ildən etibarən mövcud olan iqtisadi və diplomatik münasibətlər ildən-ilə güclənir. İndoneziya hökuməti Azərbaycanda keçirilən bütün beynəlxalq tədbirlərdə yaxından iştirak edir. Xüsusilə də İslam dünyasını birləşdirən ISESCO təşkilatı çərçivəsində təşkil edilən layihələrdə bir-birimizə dəstək oluruq. Azərbaycanda fəaliyyət göstərən İndoneziya səfirliyi çox fəal mədəni proqramlar həyata keçirirlər. Bu artıq üçüncü festivaldır və birinci festivaldan fərqli olaraq festival daha da geniş şəkildə təşkil edilib. Əminəm ki, bu festival uğurla keçiriləcək və Azərbaycan xalqı İndoneziyanın qədim mədəniyyəti ilə yaxından tanış olmaq imkanı qazanacaq. İnanıram ki, ölkələrimiz arasında əlaqələr daim inkişaf edəcək və bu festival mədəniyyətlərin yaxınlaşmasına öz töhfəsini verəcək".**



Çıxışlardan sonra festivalın açılış tədbiri konsert proqramı ilə davam edib. İlk olaraq İndoneziyadan gələn Tubaba Pakem rəqs qrupunun çıxışı izlənilib. Daha sonra tədbir iştirakçıları İndoneziyanın məşhur caz musiqiçisi Dhiki Darmavanın çıxışını dinləyiblər. Həmçinin Azərbaycan Dillər Universitetinin azərbaycanlı tələbələri İndoneziyanın professional rəqqasları ilə birgə bu ölkənin ənənəvi və milli rəqs nömrələrini təqdim edib. İndoneziya və Azərbaycan Pençak-silat federasiyaları tərəfindən təşkil olunan özünümüdafiə sənətinin incəlikləri də nümayiş etdirilib.

Qeyd edək ki, festivalın ikinci və üçüncü günləri isə Fəvvarələr meydanında sərgilər və müxtəlif tədbirlər keçiriləcək. Tədbirlərə qatılanlar İndoneziyanın arxipelaq kulinariyası ilə yaxından tanış olacaq və sərgilər vasitəsilə bu ölkənin mədəni irsini, müxtəlifliyini və gözəlliyini seyr edəcəklər. Festival çərçivəsində yarmarka da təşkil olunacaq ki, burada İndoneziyanın milli geyimləri, suvenirlər, əl işləri olan əşyalar, qəhvə və çaylar, digər məhsullar yer alacaq. Festivalda indoneziyalı iş adamları ilə yanaşı, ölkənin elm və mədəniyyət xadimləri də iştirak edir.

# Hesablama Palatasının geniş tərkibdə kollegiya iclası keçirilib





Sentyabrın 13-də Hesablama Palatasının geniş tərkibdə kollegiya iclası keçirilib.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında əsas diqqət 2018-ci il sentyabrın 5-dən qüvvəyə minmiş "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının yeni Qanununa, Qanunda Hesablama Palatasının müəyyən edilmiş fəaliyyət istiqamətləri, hüquqları, vəzifələri və bunların həyata keçirilməsi ilə bağlı qarşıda duran məsələlərə yönəldilib.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov yeni Qanun haqqında məlumat verərək qeyd edib ki, dövlət vəsaitlərinin və digər dövlət əmlakının məqsədyönlü və səmərəli istifadə edilməsinə daha keyfiyyətli və effektiv kənar dövlət maliyyə nəzarətini təmin etmək üçün bu Qanun ali audit orqanı olaraq Hesablama Palatasının qarşısında mühüm vəzifə və öhdəliklər müəyyənləşdirib. Bildirilib ki, bu Qanunun qəbul edilməsi bir daha onu göstərdi ki, ölkə rəhbərliyi maliyyə nəzarətini gücləndirməklə büdcə vəsaitlərindən düzgün və səmərəli istifadə edilməsini və bu sahədə şəffaflığın artırılmasını daim diqqət mərkəzində saxlayır. Qeyd edilib ki, yeni Qanunda ilk dəfə olaraq ali audit orqanı kimi Hesablama Palatasının statusu müəyyənləşdirilib, kənar dövlət maliyyə nəzarəti, dövlət vəsaiti, kənar dövlət maliyyə nəzarəti tədbirləri və kənar dövlət maliyyə nəzarətinin obyektlərinin anlayışları verilib ki, bu da dövlət maliyyəsi ilə bağlı bəzi metodoloji qeyri-müəyyənliklərin və uyğunsuzluqların aradan qaldırılmasına xidmət edəcək. Yeni Qanunda ali audit orqanı olaraq Hesablama Palatasının müstəqilliyinə dair ayrıca maddənin verilməsi, o cümlədən Hesablama Palatasının təşkilati və funksional müstəqilliyə malik olması və onun fəaliyyətinə qanunsuz müdaxilə etməyin yolverilməzliyi, həmçinin dövlət büdcəsindən ona ayrılmış vəsait həddində strukturunu və ştat sayını özünün təsdiq etməsi Ali Audit Qurumlarının Beynəlxalq Standartları (ISSAI) olan ISSAI 1 (Auditin Rəhbər Prinsiplərinin Lima Bəyannaməsi) və ISSAI 10-da (AAQ-ların Müstəqilliyi haqqında Mexiko Bəyannaməsi) müəyyən edilmiş prinsiplərə tam cavab verir. Diqqətə çatdırılıb ki, yeni Qanunda əvvəlki qanunvericilikdən fərqli olaraq Hesablama Palatasının fəaliyyət istiqamətləri konkret müəyyən edilərək bu istiqamətlər üzrə vəzifə və hüquqları daha əhatəli və dolğun şəkildə verilib ki, bu da Palata tərəfindən aparılan kənar dövlət maliyyə nəzarətinin keyfiyyətini artırmaqla bərabər dövlət vəsaitlərinin və digər dövlət əmlakının səmərəli şəkildə istifadə edilməsinə nəzarəti tam təmin etmiş olur.

Eyni zamanda, bildirilib ki, yeni Qanun Hesablama Palatası ilə dövlət qurumları arasında elektron inteqrasiya sisteminin genişləndirilməsi ilə hesabatlılığın gücləndirilməsi, dövrü informasiya mübadiləsinin təmin edilməsi, məsafədən auditin aparılması, maliyyə-büdcə nəzarətinin rəqəmsallaşdırılması işlərinin təşkili və başlanılmasına təkan verir.

Kollegiya iclasında çıxış edən digər məruzəçilər də yeni Qanunun rolu və əhəmiyyəti, Palatanın bundan sonra fəaliyyətinə onun necə təsir edəcəyi, qarşıda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün atılacaq addımlar və s. bu kimi məsələlər barədə ətraflı məlumat veriblər.

İclasda, həmçinin Hesablama Palatasının tərkibi və işinin təşkili, Qanunun pozulmasına görə məsuliyyət, Palatanın fəaliyyətinin təminatları haqqında Qanunda müəyyən edilmiş məsələlər haqqında məlumat verilib və kollegiya aşağıdakı məsələlər üzrə tapşırıqları müəyyən edib:

- yeni Qanunda yeni audit növlərinin müəyyən edilməsini nəzərə alaraq, həmçinin hesabatlılığın və şəffaflığın təmin edilməsi, eləcə də yeni Qanunda Hesablama Palatasının büdcə prosesində iştirakı istiqaməti üzrə fəaliyyətini genişləndirmək məqsədilə Palatanın dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının layihələrinə, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin icrasına, müvafiq qanunların layihələrinə və hesabatlara dair rəy verilməsi ilə bağlı işlərinin təkmilləşdirilməsi və bu istiqamət üzrə mövcud metodiki sənədlərin yenilənməsi və yeni metodiki sənədlərin hazırlanması;
- kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsi zamanı elektron informasiya sistemlərinə daxil olunması, nəzarət tədbirlərində informasiya texnologiyalarının tətbiq edilməsi, informasiya sistemlərinin qiymətləndirilməsi, informasiya sistemləri üzrə məlumatların toplanması kimi mühüm səlahiyyətlərin müəyyən olunduğunu nəzərə alaraq bu sahələrdə Palatanın IT istiqaməti üzrə fəaliyyətinin təkmilləşdirilməsi üçün texniki tapşırıqların hazırlanması və yeni proqram təminatlarının alınması;
- yeni Qanunun tətbiqi ilə bağlı qüvvədə olan normativ-hüquqi aktlarda aparılacaq dəyişikliklərlə bağlı təkliflərin hazırlanması.

Kollegiya iclasında, həmçinin həyata keçirilmiş aşağıdakı nəzarət tədbirləri üzrə hesabatlar müzakirə olunub:

- Dövlət büdcəsindən Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) ayrılan vəsaitlərin proqnozlaşdırılması və icrasının auditinə dair;
- İctimai Televiziya və Radio Yayımları Şirkətinə dövlət büdcəsindən ayrılan və digər mənbələrdən daxil olan vəsaitlərin istifadəsinin auditinə dair.

İclasda hər bir nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiq olunub. Həmin qərarların icrasını təmin etmək məqsədilə aidiyyəti qurumlara təqdimatların göndərilməsi və audit tədbirlərinin nəticələri barədə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması qərara alınıb.

Kollegiya iclasının sonunda Palatanın əməkdaşları Şəkərəliyev Firiş Balış oğluna, Rzayev Zəfər Çobanəli oğluna, Hacıyev İntiqam Qəşəm oğluna, Əzizov Yaşar Əli oğluna və Ağakişiyev Sənan Şakir oğluna dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təltif edildikləri medallar təqdim olunub.

# Rusiya və Azərbaycan mövqeləri tutuşdururlar

***Moskva ilə Bakı arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Buna görə Rusiya və Azərbaycan regionda və dünyada vəziyyətin dəyişməsinə uyğun olaraq vaxtaşırı öz hərəkətlərini əlaqələndirirlər. Belə görüşlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda Rusiyaya səfəri olub. RF Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində həmin görüşdəki danışıqların əhəmiyyəti barədə məlumat verib.***



**- Dmitri İvanoviç, Siz Rusiya-Azərbaycan münasibətlərinin cari vəziyyətini necə qiymətləndirirsiniz?**

- Azərbaycan Rusiyanın etibarlı tərəfdaşı, dünyada ən sürətlə inkişaf edən ölkələrdən biri, müstəqil qərarlar qəbul edən və qonşuları ilə bərabərhüquqlu əməkdaşlıq siyasəti yürüdən güclü dövlətdir. SSRİ dağılandan sonra postsovet məkanındakı ölkələrin çoxundan fərqli olaraq Azərbaycan Rusiyaya həmişə hörmətlə yanaşıb və Qərbin təşəbbüsü ilə başlanan antirusiya xarakterli hər hansı sanksiyalara qoşulmayıb. Rusiya bu cür münasibəti həmişə yüksək qiymətləndirib və eyni şəkildə cavab verib. Bu gün Rusiya və Azərbaycan bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir, oxşar mövqe tuturlar. 2008-ci ildə ölkələrimiz Dostluq və Strateji Tərəfdaşlıq Haqqında Bəyannamə imzalayıblar. Rəmzi haldır ki, həmin hadisənin onillik yubileyi ilində ölkələrimizin prezidentləri arasında əlaqələr xüsusilə fəallaşıb. Təkcə son yarım ildə Vladimir Vladimiroviç Putin və İlham Heydər oğlu Əliyev müxtəlif məkanlarda bir neçə dəfə görüşüblər və hər dəfə onların səmərəli danışıqları dövlətlərarası əməkdaşlığın genişləndirilməsi üçün yeni stimul olub.

**- Prezidentlər İlham Əliyev ilə Vladimir Putinin Soçi görüşündə əməkdaşlığın hansı aspektləri xüsusi vurğulanıb?**

- Ölkələrimizin iqtisadi əməkdaşlığı xüsusilə fəal inkişaf edir: Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 2,5 milyard dollara çatıb. Azərbaycan Prezidentinin səfəri çərçivəsində tərəflər energetika, iqtisadiyyat, idman, turizm və digər sahələrdə Rusiya-Azərbaycan qarşılıqlı fəaliyyətinə aid bir sıra sənədlər imzalayıblar. Maşınqayırma, əczaçılıq, daşınmaz əmlak sahələrinə qarşılıqlı investisiyalar barəsində həm Azərbaycanın, həm də Rusiyanın böyük planları var. Azərbaycan üçün Rusiya - kənd təsərrüfatı məhsullarının sərfəli bazarı, Rusiya üçün onun cənub qonşusu - ağır sənaye məhsulları bazarıdır. Bundan əlavə, son dövrlərdə "Rosneft" ilə SOCAR arasında müqavilələr imzalanıb, "Azərmaş" ASC və "Avtozavod QAZ" MMC əməkdaşlıq barədə razılığa gəliblər, Soçidə aparılmış danışıqların yekunlarına əsasən iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə təsdiq edilmiş beş "yol xəritəsi" isə Rusiya-Azərbaycan əlaqələrini daha da möhkəmlətməyə imkan verəcək.

**- İki ölkənin Xəzərdə və nəqliyyat sahəsində müştərək layihələri mövzusuna bir qədər ətraflı toxunasınız...**

- Yaxın vaxtlarda imzalanmış Xəzər Dənizinin Hüquqi Statusu barədə Konvensiya bütün Xəzəryanı dövlətlərin diplomatiyasının birgə uğurudur. Xəzərin statusunun dəqiq müəyyən edilməsi əsas aktorlar arasında qarşılıqlı fəaliyyət üçün yeni imkanlar açır: karbohidrogenlərin birgə hasilatı, balıq ovu, Xəzər dənizinin ekoloji təhlükəsizliyinin qorunması üzrə Moskvanın və Bakının layihələri var. Ölkələrimiz, o cümlədən "Qoşadaş" blokunun və Xəzər dənizinin Azərbaycana aid hissəsində Abşeron yarımadasının dayazsulu şimal hissəsinin öyrənilməsi ilə məşğul olmağı planlaşdırırlar.

"Şimal-Cənub" nəqliyyat dəhlizində qarşılıqlı iqtisadi fəaliyyət çox uğurla inkişaf edir. Bu məsələdə Azərbaycan mühüm rol oynayır, Rusiya isə şimala çıxışı təmin edir. Keçən il bu dəhliz üzrə yük axını cəmi 1700 ton olduğu halda, cari ilin yeddi ayı ərzində yük axını artaraq 170 min tona çatıb, yəni yüz dəfə artıb. Özü də bu, hələ başlanğıcdır!

**- Cari ildə Azərbaycan Milli Məclisinin yaradılmasının 100 illiyi qeyd olunur. Siz bu hadisənin tarixi əhəmiyyətini nədə görürsünüz və yaxın vaxtlar üçün hansı parlamentlərarası layihələr planlaşdırılır?**

- Azərbaycan müsəlman Şərqinin bütün ölkələri üçün parlamentarizm yolunu açıb. O vaxta qədər həmin ölkələrdə monarxiya və hərbi-feodal rejimləri hökm sürürdü. Azərbaycanda ilk dəfə olaraq dünyəvi respublika qurulub və siyasi plüralizm əsasında parlament yaradılıb. Bu parlament demokratiya, xalq hakimiyyəti və çoxpartiyalılıq prinsiplərini həyata keçirib: parlamentdə praktiki olaraq Azərbaycanda yaşayan bütün millətlərin və xalqların təmsil olunduğu 11 fraksiya vardı. Birinci parlamentin ömrü iki ildən az olub, lakin həmin dövrdə əsası qoyulmuş ənənələrdən 1991-ci ildə, Azərbaycan Respublikasının müstəqilliyi bərpa edilən vaxt da istifadə edilib.

Rusiya və Azərbaycan parlamentarilərinin yeni nəsli parlamentlərarası işi intensivləşdirir və gücləndirir. Bu, hər iki ölkə üçün çox vacibdir, çünki ölkələrimizin liderləri tərəfindən əldə edilmiş razılaşmaların reallaşmasının təmin olunmasında qanunverici hakimiyyət mühüm rol oynayır. Artıq vitse-spikerlərin sədrliyi ilə yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə qərar qəbul edilib və Dövlət Dumasının vitse-spikeri Sergey Neverov iki ölkənin parlamentlərarası əlaqələrinin möhkəmlənməsi məsələsini müzakirə etmək üçün sentyabrın sonunda Bakıya növbəti səfər edəcək. İdarə heyətinin sədri Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu olan Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) xətti üzrə bir sıra müştərək tədbirlər keçirilməsi planlaşdırılıb və Milli Məclisin 100 illiyi ilə bağlı şənliklərdə, əlbəttə, Rusiya parlamentinin nümayəndə heyəti də iştirak edəcək.

# Diasporla İş üzrə Dövlət Komitəsi yeni infoqrafik videoçarx hazırlayıb




Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi yeni infoqrafik videoçarx hazırlayıb. Bu barədə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsi məlumat verib. Bildirilib ki, infoqrafik videoçarxda Komitənin əsas fəaliyyət istiqamətləri, diasporun mahiyyəti və tərkibi, eləcə də diaspor siyasətinin başlıca istiqamətləri öz əksini tapıb.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan soydaşlarımızla bağlı dövlət siyasətini həyata keçirən mərkəzi icra qurumudur. Bu məqsədlə xaricdə yaşayan soydaşlarımıza dəstək, onların milli mənsubiyyətinin qorunması, Azərbaycan həqiqətlərinin dünyada təbliği, dünya azərbaycanlılarının vahid milli maraqlar ətrafında birləşdirilməsi Dövlət Komitəsinin əsas hədəfləri sırasında yer alıb.

**MÜŞFİQƏ**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə böyük töhfə

## *Milli Arxiv İdarəsi tərəfindən AXC-nin fəaliyyətini əks etdirən yeni kitablar çapdan çıxıb*




Bu günlərdə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi tərəfindən hazırlanan "Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları (portret-oçerklər və məqalələr)" və "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil siyasəti (sənədlər toplusu)" kitabları işıq üzü görüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli 2867 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə dair Tədbirlər planına" uyğun olaraq hazırlanan hər iki kitab "Elm və təhsil" nəşriyyatında çap olunub.

"Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları" kitabında Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Dövlət Arxivləri əməkdaşlarının arxiv sənəd və materialları, eləcə də digər tarixi mənbələr əsasında yazdıqları və müxtəlif illərdə mətbuat səhifələrində çap olunmuş portret-oçerklər və məqaləsi toplanıb. "İstiqlal bəyannaməsi"nin tam mətni və onun haqqında məlumatın, habelə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövlət quruluşunun və dövlət quruculuğu prosesinə həsr olunmuş mətnlərin də yer aldığı kitabda AXC-nin qurulmasında iştirak edən görkəmli şəxsiyyətlərin - Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmməd Xan Təkinski, Cavad bəy Məlik-Yeqanov, Məmməd Yusif Cəfərov, Aslan bəy Kriçinski, Üzeyir və Ceyhun Hacıbəyov qardaşları, Firudin bəy Köçərli, Həmid bəy Şahtaxtinski, Əhməd bəy Ağayev, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Xudadat bəy Rəfibəyov, habelə milli ordu quruculuğunda iştirak etmiş generallardan Teymur bəy Novruzov, Süleyman bəy Əfəndiyev və digərləri haqqında oçerklər və məqalələr yer alıb. Kitabın redaktoru və ön sözün müəllifi tarix elmləri doktoru Əsgər Rəsulovdur.

"Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil siyasəti" toplusu isə 1918-ci ilin may ayından 1920-ci ilin aprelinə qədər dövrdə AXC-nin təhsil və maarif sahəsində fəaliyyətini əks etdirən arxiv sənədləri əsasında hazırlanıb. 3 fəsildən (orta təhsil; orta-texniki, hərbi və xüsusi təhsil; ali təhsil müəssisələri) ibarət topluya qeydlər, adlı göstərici, coğrafi adların göstəricisi, istifadə olunmuş mənbələrin siyahısı da daxildir. Girişdə sənədlərin xüsusiyyətləri, növləri barədə Azərbaycan və rus dillərində geniş məlumat və izahlar verilib. Tarixi sənədlərin nəşr qaydalarına uyğun olaraq, topluda sənədlər orijinal mətnlərinə, stilistik xüsusiyyətlərinə toxunulmadan verilib. Kitabın məsul redaktoru Ataxan Paşayev, redaktoru isə Əsgər Rəsulovdur.

AXC-nin 100 illiyinin qeyd edilməsi üzrə tədbirlər planı çərçivəsində hazırlanan nəşrlərdə yer alan bir çox materialların xüsusi əhəmiyyətini vurğulayaraq, hər iki kitabı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə böyük töhfə kimi qiymətləndirmək olar.

**Qaşqay RAMAZANOV**

# Qida Təhlükəsizliyi Agentliyi aqrokimyəvi maddələrlə bağlı xəbərdarlıq edib

Son zamanlar aqrokimyəvi maddələrin idxalı ilə bağlı nəzarət tədbirlərinin gücləndirilməsinə baxmayaraq, bəzi sahibkarlıq subyektləri tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada sınaqları aparılmayan, o cümlədən qeydiyyatdan keçməyən və mənşəyi məlum olmayan bir sıra aqrokimyəvi maddələrin (pestisidlər, o cümlədən herbisidlər, funqisitlər, insektisidlər, defoliantantlar, akarisidlər və gübrələr) ölkəyə idxalı cəhdləri müşahidə olunur.

Bu barədə AZƏRTAC-a Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) İnformasiya təminatı və innovativ həllər şöbəsindən açıqlama verilib.

Məlumata əsasən, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən bu kimi cəhdlərin qarşısı qətiyyətlə alınır. Yalnız dövlət qeydiyyatına alınan, istifadəsinə icazə verilən preparatlar siyahısına daxil edilən, mənşəyi və keyfiyyəti barədə sertifikatları olan və müvafiq qaydada qablaşdırılan, etiketləşdirilən pestisidlər və gübrələrin idxalına icazə verilir.

Nəzərə almaq lazımdır ki, sınaqları aparılmamış, istifadəsi üçün müsbət rəy alınmayan və mənşəyi məlum olmayan bu cür aqrokimyəvi maddələrin istifadəsi əhalinin sağlam qida məhsulları ilə təmin edilməsinə ciddi təhlükələr yaratmaqla yanaşı, əkinə yararlı məhsuldar torpaqların uzunmüddətli çirklənməsi və sıradan çıxmasına səbəb olur. Eyni zamanda, qanunvericiliyin tələblərinə uyğun olmayan bu cür aqrokimyəvi maddələrin istifadəsi təsərrüfat sahələrində çalışan insanların, həssas əhali qrupuna daxil olan hamilə qadınların, uşaqların, qocaların sağlamlığına ciddi fəsadlar törətməklə genofondumuza mənfi təsir göstərə biləcək hallara gətirib çıxara bilər.

Qida Təhlükəsizliyi Agentliyi xəbərdarlıq edir ki, qeydiyyatdan keçməyən bu cür aqrokimyəvi maddələrin, pestisidlərin ölkəyə idxalına cəhd edən sahibkarlıq subyektləri ilə bağlı qanunvericiliyin tələbləri çərçivəsində ən sərt tədbirlər həyata keçiriləcək.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda turist cəlbediciliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlər müsbət nəticələr verir

## *2018-ci ilin yanvar-iyul aylarında Azərbaycana gələn turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,3 faiz artıb*






Turizmin ayrı-ayrı ölkələrin iqtisadiyyatındakı mövqeyi getdikcə güclənir. Turizm potensialına malik olan dövlətlər müxtəlif təşviq tədbirləri görməklə daha çox sayda turisti cəlb etməyə və beləliklə də öz gəlirlərini artırmağa çalışırlar. Dünya Turizm Təşkilatının yeni hesabatına görə, 2017-ci ildə Dubayda beynəlxalq turizmdən əldə edilən gəlir 77,5 milyard dirhəm (21,1 milyard dollar) olub. Hesabatda bildirilir ki, gəlirlərin həcmi əvvəlki ilin göstəricisi ilə müqayisədə 8 faiz artıb.

Turizm sektoru İspaniyada iş yerlərinin sayına görə əvvəlki lideri - tikinti sektorunu geridə qoyaraq bu göstərici üzrə ölkədə birinci yeri tutur. Hazırda İspaniyada işləyən əhalinin 75,5 faizi xidmətlər sahəsində çalışır. Verilən məlumatlarda göstərilir ki, 2018-ci ilin baharında bu ölkədə turizm sahəsində işləyənlərin sayı 2,65 milyondan çox olub.

Beynəlxalq Turizm Təşkilatının proqnozları da bu sektorun necə gəlirli sahə olduğu barədə konkret təsəvvür yaradır. BTT-nin yaydığı hesabata əsasən, 2020-ci ildə dünyada turistlərin sayı 1,6 milyard nəfərə, turizmdən əldə olunan gəlirlərin miqdarı isə 2000-ci illə müqayisədə 481 milyard ABŞ dollarından 2 trilyon dollara qədər artacaq.

Yeni iqtisadi şəraitdə qeyri-neft sektorunun üstün inkişafını hədəfləyən Azərbaycanda da turizmin inkişafı diqqət mərkəzində saxlanılır. Qeyd edək ki, respublikamızın turizm potensialı kifayət qədər genişdir. Son illərdə bütün ölkə üzrə yaradılan müasir infrastruktur, tarixi abidələr, əhalinin qonaqpərvərliyi, tolerantlıq mühiti, milli mətbəxin zənginliyi ölkəmizin turist cəlbediciliyinin artmasına müsbət təsir göstərən amillərdir. Azərbaycan turizm sektorunu inkişaf etdirməklə bir tərəfdən özünün milli gəlirlərini artırmaq, digər tərəfdən isə xalqımızın dəyərlərinin, o cümlədən də adət-ənənələrimizin, zəngin mədəniyyətimizin dünyada layiqli şəkildə təbliğ edilməsinə nail olmaq istəyir.

### 2018-Cİ İLİN ƏVVƏLİNDƏN ÖLKƏMİZƏ GƏLƏN TURİSTLƏRİN SAYINDA ARTIM MÜŞAHİDƏ EDİLİB

Cari ilin arxada qalan dövrü ərzində ölkəmizə səfərə gələn əcnəbi turistlərin sayında artım müşahidə edilib. Bu barədə KİV-ə Dövlət Turizm Agentliyinin nümayəndəsi Kənan Quluzadə məlumat verib. Agentlik rəsmisi bildirib ki, cari ilin iyul ayında Azərbaycana səfər edən əcnəbilərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 5,3 faiz artaraq 330 minə çatıb. Əcnəbilərin təqribən üçdəbir hissəsini (119 min nəfər) Rusiya vətəndaşları təşkil edir. Digər 20 faiz və 15 faiz əcnəbilər isə Yaxın Şərq ölkələri və Gürcüstanın payına düşür. Ümumən götürdükdə, qeyd edilən ölkələrdən gələnlər Azərbaycana səfər etmiş əcnəbilərin 70 faizini təşkil edir.

2018-ci ilin ilk yeddi ayında Azərbaycana səfər edən səyahətçilərin sayı 1,65 milyondan çox olaraq ötən ilin analoji dövrü ilə müqayisədə 9,3 faiz artıb. Bu axının böyük hissəsi, 0,5 milyon, yəni 31, 5 faizi Rusiyadan olan səyahətçilərin payına düşür. Gürcüstan (20 faiz), Yaxın Şərq bölgəsi (13 faiz ), Türkiyə (10 faiz) və İran (10 faiz) əcnəbi axınının digər əhəmiyyətli mənbələri sayılırlar.

Xarici ölkələrdən səfər edənlərin, xüsusilə Gürcüstandan (9 faiz) və Yaxın Şərq bölgəsindən (54 faiz) gələnlərin sayında artım mövcuddur. Yaxın Şərq bölgəsindən səfər edənlərin (58 min nəfər) böyük bir hissəsini BƏƏ vətəndaşları təşkil edir. Səudiyyə Ərəbistanından Azərbaycana 42 minə yaxın səyahətçi gəlib və bu rəqəm 2017-ci ilin göstəricisi ilə müqayisədə iki dəfədən çox yüksəkdir.

2018-ci ilin yanvar-iyul aylarında Cənubi və Şərqi Asiya ölkələrindən 112 minə yaxın səyahətçi ölkəmizə səfər edib və bu göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 57 faiz artım deməkdir. Bu bölgələrdən olan axının əsas hissəsini Qazaxıstan (5%), Pakistan (209%), Hindistan (188%) və Türkmənistandan (80%) olan səyahətçilər təşkil ediblər.

### RESPUBLİKANIN BÖLGƏLƏRİNDƏ YENİ LAYİHƏYƏ START VERİLİB

Qeyd etdiyimiz kimi, respublikamızda turist cəlbediciliyini artırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. 2018-ci ilin avqustunda sağlam və təmiz qida sahəsində dünya üzrə qlobal təşkilat olaraq fəaliyyət göstərən “Slou Fud”un (Slow Food) təşəbbüsü ilə “Azərbaycanda Böyük Qafqaz regionunun kənd ərazilərində dəyər zəncirinin yaradılmasının təkmilləşdirilməsi” adlı üçillik layihəyə start verilib.

Layihə “Paşa Travel” şirkəti ilə əməkdaşlıq çərçivəsində Heyvanların Müdafiəsi İctimai Birliyi və Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının tərəfdaşlığı, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi və Dövlət Turizm Agentliyinin dəstəyi ilə həyata keçirilir.

Dövlət Turizm Agentliyindən bildirilib ki, ilkin olaraq “Slou Fud” modellərinin tətbiqi üçün Şəki, Qəbələ, Şamaxı, İsmayıllı və Qax rayonları ərazisində həyata keçirilməsi planlaşdırılan layihə çərçivəsində yerli qida məhsullarının istehlakının təşviqi üzrə milli kampaniyanın, Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə beynəlxalq kampaniyanın, Azərbaycan nümayəndə heyətinin “Slou Fud”un beynəlxalq tədbirlərində iştirakını nəzərdə tutan tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.

Layihə aqro-biomüxtəliflik və mədəni irsin qorunması, yerli qastronomiyanın dəyərinin artırılması, əhalinin gəlirlərinin potensial davamlılığı ilə yanaşı, turistik məhsulların inkişafı kimi müxtəlif məsələləri əhatə edəcək.

Uzunmüddətli məqsədlər sırasına təbii ehtiyatların istifadəsinin optimallaşdırılması, işsizlik səviyyəsinin və kənd təsərrüfatı miqrasiyasının azaldılması, həmçinin ərazinin dayanıqlılığının artırılması daxildir. Layihənin həyata keçirilməsi ilə qida məhsulları istehsalının dinamik inkişafının təkcə kənd ərazilərində deyil, eyni zamanda, kənd təsərrüfatı məhsullarının əsas satış bazarı olan şəhər mərkəzlərində də məşğulluğun artırılması və saxlanılmasıda müsbət rol oynayacağı planlaşdırılır. Həmçinin kənd ərazilərinin inkişafına yeni yanaşmaların tətbiq edilməsi Azərbaycan iqtisadiyyatının diversifikasiyalaşması üçün xüsusi əhəmiyyət daşımaqla sosial sabitliyin təmininə də dəstək vermiş olacaq. Mütəxəssislərin qənaəti belədir ki, bu kimi tədbirlər Azərbaycanın bölgələrində turist cəlbediciliyinin artmasına müsbət təsir göstərəcək.

### VETERANLAR ONLAR ÜÇÜN “ŞAHDAĞ”A TƏŞKİL OLUNAN İSTİRAHƏT TURUNDAN MƏMNUN QALIBLAR

Dövlət Turizm Agentliyinin dəstəyi ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları təşkilatının 40 nəfər üzvü üçün “Şahdağ” Turizm Mərkəzinə birgünlük istirahət turu təşkil olunub. Agentlikdən KİV-ə bildirilib ki, tur çərçivəsində veteranların və ailə üzvlərinin istirahəti üçün hər cür şərait yaradılıb.

Qurum tərəfindən Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq əhalinin müvafiq təbəqəsinin, o cümlədən sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş veteranlara, habelə əmək veteranlarına sosial diqqət və qayğının göstərilməsi, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bu cür turların mütəmadi olaraq həyata keçirilməsi planlaşdırılır. Veteranlar onlar üçün “Şahdağa”a təşkil olunan istirahət turundan məmnun qalıblar.

### “QUBA - AZƏRBAYCANIN HEYRANEDİCİ REGİONU”

İsveçrənin www.travel-blog.ch səyahət portalında “Quba - Azərbaycanın heyranedici regionu” adlı məqalə dərc olunub. Məqalədə Qubada yerləşən və turistlərin marağını cəlb edən məkanlar barədə ətraflı məlumat verilir. Məqalədə bir çox məşhur avropalı səyyahın XIX əsrdə Quba ilə bağlı təəssüratları diqqətə çatdırılır və bu regionun tarixi, mədəni abidələrlə zənginliyindən bəhs edilir. Regionda qədim körpülər, məscidlər, hamamlar, muzeylər mövcuddur və Quba özünün xalçaçılığı ilə də məşhurdur.

Yazıda Qubanın multikultural dəyərləri barədə də məlumat verilərək qeyd olunur ki, bu yer müxtəlif millətlərin tolerantlıq şəraitində yaşadığı məkandır. Məqalədə həmçinin bildirilir ki, Qubaya gələn turistlərin səyahət etdikləri məkanlardan biri də 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılan Quba Soyqırımı Memorial Kompleksidir.

Məqalədə Qubanın öz alması ilə məşhur olduğu vurğulanır və son illərdə turizmin inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilir. Belə ki, rayonda 40 mehmanxana fəaliyyət göstərir, eyni zamanda burada turistlərin yüksək səviyyədə dincəlməsi üçün çoxlu sayda restoran və kafelər də mövcuddur.

### NAFTALANDA NEFTLƏ ƏVƏZOLUNMAZ MÜALİCƏ

**“Azərbaycan dünyada bənzəri olmayan bir müalicə üsuluna malikdir - Naftalan nefti ilə müalicə. Bakının 320 kilometrliyində yerləşən Naftalandakı bu möcüzəli yağ dəri xəstəlikləri, revmatizm, qan dövranı və s. müalicəsi üçün şəfa mənbəyidir”.** Bu barədə “Euronews” telekanalının Naftalan neftindən bəhs edən reportajında deyilir. Məşhur aparıcı Serxio Kantone reportajında Naftalan şəhərinin turizm sahəsində geniş təcrübəsi və dünyada bənzəri olmayan bu neftlə müalicə üsulları barədə məlumat verir.

Müəllif qeyd edir ki, Naftalan nefti nəqliyyat yanacağı üçün istifadə edilən neftdən deyil. Onu fərqləndirən və möcüzəli edən məhz orqanizm üçün xeyirli xüsusiyyətləridir.

Reportajda Naftalan neftinin orqanizmə müsbət təsirlərindən, insanların bu neftə üstünlük vermələrinin səbəblərindən danışan həkim Dilbər Kazımova onun hansı xəstəliklər zamanı faydalı olması barədə ətraflı məlumat verib.

Müəllif onu da diqqətə çatdırıb ki, burada təyin edilən müalicə müddətində xəstələr hər gün 10 dəqiqə neft vannası qəbul edirlər. Bu vannalar bir çox xroniki xəstəliklərin müalicəsində də müsbət təsirə malikdir.

**Mübariz ABDULLAYEV**

# “Veysəloğlu” Şirkətlər Qrupu 700 bal toplayan abituriyentləri təbrik edib



“Veysəloğlu” Şirkətlər Qrupunda artıq ənənəvi hal almış ali təhsil müəssisələrinə qəbul imtahanı zamanı ən yüksək nəticə göstərərək 700 bal toplayan abituriyentlərlə növbəti görüş keçirilib. Şirkətlər qrupunun təlim-tədris mərkəzində baş tutan görüşdə şirkət rəhbərliyi, 700 bal toplayan 20-dən çox tələbə və onların valideynləri iştirak ediblər.

Tədbirdə iştirakçılara “Veysəloğlu” Şirkətlər Qrupunun fəaliyyəti barədə qısa məlumat verilib və videoçarx nümayiş etdirilib. Daha sonra “Veysəloğlu” Şirkətlər Qrupunun rəsmiləri çıxış edərək, yüksək bal toplayan abituriyentləri təbrik edib və onlara yeni qəbul olduqları ali təhsil müəssisələrində daha böyük müvəffəqiyyətlər qazanmağı arzulayıblar.

Tədbirdə şirkətin korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində həyata keçirilən layihələr arasında təhsilə dəstək və tədrisin hər zaman öncül yer tutduğu vurğulanıb. Görüşdə həmçinin bildirilib ki, şirkət savadlı və özünü inkişaf etdirmək istəyən gənclərə karyera inkişafında daim dəstək verməyə hazırdır.

Sonda 700 bal toplayan abituriyentlərə “Veysəloğlu” Şirkətlər Qrupu tərəfindən hədiyyələr təqdim olunub.

**PƏRVİZ**

# Bakcell növbəti dəfə sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq “Socially Devoted” sertifikatı ilə təltif olunub.

Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış “Socialbakers” şirkəti Azərbaycandakı şirkətlərin “Facebook” şəbəkəsində 2018-ci ilin II rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, göstərilən müddət ərzində Bakcell şirkəti özünün rəsmi “Facebook” səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki, Bakcell şirkəti 2018-ci ilin birinci rübü ərzində də abunəçi sorğularının 100%-ni cavablandıraraq göstərdiyi yüksək nəticəyə görə xüsusi sertifikatla təltif olunmuşdur. Həmçinin, 2017-ci ildə “Bakcell” dörd dəfə “Socially Devoted” sertifikatına layiq görülüb. “Bakcell”in “Facebook” səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından “Bakcell”in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti “Bakcell”in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır.




Bakcell abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən “555” Məlumat Mərkəzinə və ya sorğuların 100% cavablandırılmasını təmin edən “Facebook” səhifəsinə müraciət edə bilərlər.

# “Nar”-dan 10 qəpiyə günlük internet paketi təklifi




“Nar” abunəçilərinə kiçik məbləğ ödəməklə sərfəli günlük internet təklif edir. Təklif edilən “Günü 10 qəpik” paketinə əsasən, hər gün cəmi 10 qəpik ödəməklə 30 MB internet trafiki əldə etmək mümkündür. Paketə qoşulmaq üçün “gunluk10” yazib 777 nömrəsinə SMS göndərmək və ya *777#12#YES şifrəsini yığmaq lazımdır.

“Günlük 40 qəpik” paketi isə 40 qəpik ödəməklə 200 MB internet trafiki təklif edir. Paketə qoşulmaq üçün “gunluk40” yazıb 777 nömrəsinə SMS göndərmək və ya *777#24#YES kodunu yığmaq yetərlidir. Hər gün ölkədaxili dəqiqələr və MB-lar əldə etmək üçün isə “Günlük 59 qəpik” paketinə qoşulmaq olar. Paket hər gün ölkədaxili zənglər üçün 25 dəqiqə və 100 MB internet təqdim edir. Bununla da gündəlik mobil xərcləri nəzarət altında saxlamaq olar. Qoşulmaq üçün “gunluk59” yazıb 777 nömrəsinə SMS göndərmək və ya *777#59#YES kodunu yığmaq kifayətdir.

“Nar” tarif və kampaniyaları haqqında ətraflı məlumatı isə nar.az internet səhifəsindən öyrənmək olar.

“Nar” sərfəli qiymətə yüksək keyfiyyət prinsipinə sadiq qalaraq, bir-birindən fərqli təkliflərlə abunəçilərinin mobil rabitə tələblərini qarşılamağa davam edir. Gücləndirilmiş “Nar” şəbəkəsi sayəsində mümkün olan bu təkliflər müxtəlif kateqoriyalardan olan “Nar” abunəçilərinin istəkləri nəzərə alınaraq irəli sürülür.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azercell-in “Mobil Göz Klinikası” Ağdama gedir

## *Klinikanın həkimləri Ergi kəndində pulsuz xidmət göstərəcəklər*




İnsanların sosial rifahının yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələr həyata keçirən “Azercell Telekom” MMC 7 ildir “Mobil Göz Klinikası” ilə aztəminatlı ailələrin və uşaqların ümid yerinə çevrilib. 2011-ci ildən indiyə qədər Bakı şəhərindəki bir çox internat məktəblərinə, uşaq evlərinə, eyni zamanda rayonlarımıza səfər edən, minlərlə ehtiyacı olan insana yardım edən klinikanın həkimləri sentyabrın 14-də Ağdamın Ergi kəndində xəstələri qəbul edəcəklər. Göz xəstəliklərindən əziyyət çəkən insanlar Azercell-in bu unikal layihəsindən yararlana bilərlər. Klinikaya müraciət etməklə insanlar peşəkar oftalmoloqların, mütəxəssislərin müayinəsindən keçib, gözlərin qorunması üçün zəruri məsləhətlər almaq imkanı əldə edəcəklər. Ehtiyac olan təqdirdə xəstələrə eynək reseptləri də yazılacaq. Respublika miqyaslı bu təşəbbüs Ağdamda da valideyn himayəsindən məhrum olan uşaqları, həmçinin ahılları və aztəminatlı ailələri əhatə edəcək. Xatırladaq ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri Azercell-in dəstəyi ilə “Xəzər Qayğıkeşlik Layihəsi” İctimai Birliyi tərəfindən həyata keçirilir. Layihə çərçivəsində təkcə ötən ildən etibarən “Mobil Göz Klinkası”nda ümumilikdə 2300-ə yaxın şəxs müayinədən keçib.

Qeyd edək ki, fəaliyyət göstərdiyi 22 il ərzində çoxsaylı Korporativ Sosial Məsuliyyət layihələrini həyata keçirən Azercell Telekom ölkədə müxtəlif sosial layihələrin həyata keçirilməsinə, sahibkarlığın, insan qaynaqlarının inkişafına 1996-2017-ci illər ərzində 18 milyon 718 min 649,12 ABŞ dolları həcmində vəsait sərf edib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU